

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Ana dilim-şirin dilim...




7

№ 136 (7061)

SƏS

1 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Ermənistanla sülhdə regional dinamikanın önəmi




2

# ABŞ tərəfindən REVANŞİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİ




4

## Elçin Əmirbəyov: "Paşinyan açıq şəkildə bildirib ki, Azərbaycana qarşı ərazi iddiaları yoxdur"




2

## Ermənistan-Türkiyə sərhədi açılacaqmı?




7

## Əhsən, Hidayət!



10

## Hansı cəmiyyəti sağlam hesab etmək olar?



16

## İsmayıl Haniyəyə sui-qəsd - Haniyə kim idi, bölgədə nələr olacaq?



10




# Ermənistanla sülhdə regional dinamikanın önəmi

Son illər Azərbaycan və Ermənistan arasında sülh prosesi mühüm sürət qazanıb. İki ölkə arasında uzunmüddətli düşmənçilik və münaqişələrdən sonra sülh sazişinə və Cənubi Qafqazda sabitliyə nail olmaq fürsətinin yaxınlaşdığı məlumdur. Lakin bu prosesin mürəkkəbliyi və regional dinamika sülhün daimi olub-olmamasında həlledici rol oynayır. Azərbaycan və Ermənistan arasında sülh danışıqları keçən il, təxminən otuz illik konflikt dönəmindən sonra yeni dövrə qədəm qoydu. 2023-cü ilin dekabrında hər iki ölkə danışıqların ən effektiv və perspektivli yolunun birbaşa ikitərəfli danışıqlar olduğuna qərar verdi ki, bu da prosesin sürətlənməsinə və dərinləşməsinə səbəb oldu. Bu qərar qarşılıqlı etimadın yaradılmasında və digər mühüm addımların atılmasında dönüş nöqtəsi oldu.

Azərbaycan tərəfi beynəlxalq ictimaiyyətin gözləntilərini doğrultmaq və Ermənistanın Azərbaycanla olan qərəzli iddialarını qəti şəkildə həll etmək üçün bütün səylərini davam etdirəcəklərini bəyan edir. Beləliklə, müharibədən qalib çıxan ölkəmiz ümid edir ki, mövcud çətinliklər tezliklə aradan qaldırılacaq və davamlı, təhlükəsiz sülh əldə olunacaq.

Erməni tərəfi isə bildirir ki, sülh sazişinin imzalanmasına əhəmiyyətli maneə ərazi iddialarının öz həllini tapmamasıdır. Ermənistan rəsmiləri vurğulayırlar ki, bu iddiaların həlli və dolayısıyla vahid fikrə gəlmiş erməni tərəfi olmazsa, razılaşmanın qarşısındakı son maneəni aradan qaldırmaq mümkün olmayacaq. Ümumilikdə isə onlar da bilirlər ki, sülh prosesi regionlar birlikdə, Ermənistanın da inkişafına töhfə verəcək. Görünən odur ki, onlar kiçik narazılıqları qabardaraq ümumi həll prosesini ləngidib, müəyyən güzəştlər əldə etməyə çalışırlar. Lakin bu məqamda hələ də dəqiq bir həll yolu tapılmayıb və tərəflər arasında danışıqlar davam edir. Sülh prosesi Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlarla məhdudlaşmır. O, həm də regional güclərin təsiri altında öz gedişatını formalaşdırır. Bu kontekstdə Rusiya, Türkiyə və İran kimi ölkələrin rolları həlledicidir. Rusiya tarixən bu regionda güclü təsiri olan bir aktor kimi seçilir. Rusiyanın həm Azərbaycan, həm də Ermənistanla tarixi əlaqələri və hərbi əməkdaşlığı sülh prosesində mühüm rol oynayır. Rusiyanın bu prosesdə rolu həm vasitəçi, həm də regional tarazlığın qorunmasına yönəlmiş strategiya kimi qiymətləndirilir. Lakin Rusiyanın bu prosesə təsiri bəzən arzuolunmaz ola bilir. Çünki o, regionda təsirini saxlamaq və öz strateji maraqlarını qorumaq üçün bəzən neytrallığa uyğun gəlməyən addımlar ata bilər.

Türkiyə isə Azərbaycanın yaxın müttəfiqi kimi sülh prosesində mühüm rol oynayır. Türkiyənin sülh prosesinə verdiyi töhfələr arasına ümumilikdə Azərbaycana siyasi və hərbi həmçinin regional sabitliyin möhkəmləndirilməsinə yönəlmiş təşəbbüslər daxildir. Beləliklə, Türkiyənin bu prosesin bir hissəsi olması Azərbaycanın strateji və diplomatik məqsədlərinə çatmasına daima yararlıdır. Regionun üçüncü mühüm aktoru kimi İran, Azərbaycan və Ermənistan arasında sülh prosesində diqqətlə izləyən başqa bir tərəfdir. İran ümumilikdə regional sabitliyi qoruyub saxlamaq və münaqişələrin qarşısını almaq məqsədi daşıyan bir ölkə kimi görünür. Lakin potensial sülhün İran üçün mənfilərini hesablasaq onun bu prosesdə heç də maraqlı olmadığını görərik.

Azərbaycan və Ermənistan arasında sülh prosesi regionda tarixi gərginliyə son qoymaq və davamlı sülhə nail olmaq üçün böyük imkan yaradır. Lakin bu prosesin uğurlu nəticəyə çatması təkcə iki ölkə arasında aparılan danışıqlardan deyil, beynəlxalq ictimaiyyətin dəstəyindən, həm də regional güclərin xoşməramlı və tərəfsiz mövqeyindən asılıdır. Bu kontekstdə sülh prosesinin gələcəyini həm birbaşa danışıqlar, həm də regional dinamika müəyyən edəcək.

***Zərdüşt Quluzadə***

# Elçin Əmirbəyov: "Paşinyan açıq şəkildə bildirib ki, Azərbaycana qarşı ərazi iddiaları yoxdur"

**"Konstitusiya dəyişikliyinin Ermənistanın Baş naziri Nikol Paşinyan üçün nə qədər çətin olmasından danışarkən unutmamalıyıq ki, o, ən çətin işi artıq edib. O açıq şəkildə bildirib ki, Azərbaycana qarşı ərazi iddiaları yoxdur".**

AZƏRTAC-ın məlumatına görə, bu sözləri ABŞ-da səfərdə olan Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Hudson" İnstitutunda keçirilən müzakirələr zamanı deyib. Onun sözlərinə görə, N.Paşinyan hətta Azərbaycan ərazisi hesab etdiyi ərazini kvadrat kilometrinədək qeyd edib. Ölkənin xarici işlər naziri isə sülh sazişi layihəsinə daxil edilmiş 5 fundamental baza prinsipini qəbul etdiklərini açıqlayıb.




"Prinsiplərdən biri ölkələrin bir-birinin ərazi bütövlüyü və suverenliyinə hörmətdir. Bu da indi və gələcəkdə istənilən ərazi iddiasından imtina etmək deməkdir. Paşinyandan gözlənilən onun ritorika və siyasi bəyanatlarını real vəziyyətə uyğunlaşdırmasıdır. Əgər o, sadəcə olaraq deyirsə ki, bu məsələni həll etmək onun üçün çətindir, çünki ölkə daxilində çətinliklərlə üzləşəcək, bu, bizim üçün zəif arqumentdir. Bizim ondan gözlədiyimiz baş nazir kimi elan etdiyi Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olması, Ermənistanın ona qarşı iddialarının olmaması və bunun əsasında da qonşuları ilə əlaqələrini normallaşdırmağa hazır olması barədə bəyanatlarını icra etməsidir. Yeganə lazımi addım bu münaqişənin tək səbəbini aradan qaldıracaq konstitusiya dəyişikliyidir. Təsəvvür edin ki, biz bu sazişi imzalayırıq və bir müddət sonra Ermənistanda yeni hökumət hakimiyyətə gəlir və bildirir ki, saziş əvvəlki baş nazir tərəfindən imzalanıb və legitim deyil, çünki konstitusiya ilə ziddiyyət təşkil edir. Bu, o deməkdir ki, onlar gələcək revanşist ritorikalar üçün qapıları açıq saxlayırlar. Ona görə də, sülhün əldə olunmasını istəyən heç bir kəs bu məsələni gözardı edə bilməz",- deyə Elçin Əmirbəyov qeyd edib.

O qeyd edib ki, ABŞ hər zaman geniş mənada Xəzər regionunda, o cümlədən Cənubi Qafqazda stabilliyin və mehriban qonşuluğun təbliğ olunmasında vacib rol oynayıb.

"Bizim müxtəlif sahələrdə 30 ildən çox davam edən intensiv əməkdaşlığımız mövcuddur. Ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli və məhsuldar əməkdaşlıq var. Həmçinin biz böyük regional və beynəlxalq çağırışlara cavab vermək üçün birlikdə işləmişik. Azərbaycan əsgərləri Əfqanıstan, Kosovo və İraq kimi qaynar nöqtələrdə amerikalı hərbçilərlə çiyin-çiyinə döyüşüb və biz Kabil Hava Limanını ən son tərk edənlərdənik", - deyə Elçin Əmirbəyov əlavə edib.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi qeyd edib ki, regionda iki xalqın münaqişə və rəqabəti bitirməsi, bölgədə rifah, stabillik və inkişaf naminə yeni dövrün başlatması Ermənistanla da çox yaxşı əlaqələrə malik olan ABŞ-ın da marağındadır: "Biz ABŞ-ın prosesin daha da irəliləməsini asanlaşdırmaq üçün göstərdiyi səyləri təqdir edirik. Düşünürəm ki, belə təlatümlü zamanda dünyada sülh üçün yaxşı imkanın olduğu və məsələnin müsbət həllinin baş verəcəyi ən azı bir nöqtə tapmaq sevindirici haldır".




# Dövlət Statistika Komitəsi beynəlxalq sertifikatla təltif olunub

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi gender statistikası sahəsində əldə olunmuş nailiyyətlərə görə BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Təşkilatı tərəfindən sertifikatla təltif olunub. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

# Qələbələrimiz Azərbaycanın gücünün, qüdrətinin nümunəsidir

Son iki yüz il ərzində Azərbaycan xalqının başına gətirilən mili faciələrin, dağıntıların əsas müəllifi erməni terrorçu toplumu olub. Təkcə son iki yüz il ərzində erməni toplumunun vəhşiliyi nəticəsində iki milyona yaxın azərbaycanlı qətlə yetirilib, yüzlərlə kənd, qəsəbə şəhər yer üzündən silinib, tarixi abidələr, memarlıq nümunələri vandallığın qurbanı olub. Vəhşi toplum azərbaycanlıların qanını tökməkdən, yurd-yuvasını viran qoymaqdan doymayıb, daha da vəhşiləşib, yeni qırğınlar törədib, dağıntılar həyata keçirib. Bu məsələ yalnız 20-ci əsrdə 4 dəfə azərbaycanlılara qarşı soyqırımlar törədib. Faşist təfəkkürlü erməni vəhşi toplumu xaricdəki ağalarının hərbi, siyasi dəstəyinə ötən əsrin 90-cı ilin əvvəllərində Azərbaycanın 20 faiz torpaqlarımızı işğala edib, 1 milyona yaxın insanı ev-eşiyindən didərgin salmışdı. 1994-cü ildən 2020-ci ilə qədər atəşkəs rejimində yaşasaq da, daim ölüm-itimlər, dağıntılar baş verib. Ermənistan müxtəlif terrorçu dəstələri önə çıxartmaqla azərbaycanlılara qarşı terror aktları həyata keçirib. Vəhşiləşmiş, insanlıq hissindən məhrum olan erməni toplumu beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd qətnamə qəbul etsə də, Ermənistan bu qərarlara əhəmiyyət verməyib. Bununla yanaşı, AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası Ermənistanın işğalçılıq siyasətini kəskin pisləyən bəyanatlar qəbul ediblər. Təbii ki, sonsuza qədər danışıqlar aparıla bilməzdi. Bir gün status-kvo dəyişməli idi və belə də oldu. 2020-ci il sentyabrın 27-dən başlanan İkinci Qarabağ müharibəsində torpaqlarımız Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad edildi. 44 günlük müharibə ilə Ermənistanın 30 ilə yaxındır ki, qurduğu mühəndis-istekam qurğuları, yüzlərlə hərbi texnikası, minlərlə canlı qüvvəsi məhv edildi. Dəyəri 4 milyard ABŞ dolları olan hərbi texnikası qənimət olaraq götürüldü.









## Azərbaycan parlaq, hərbi siyasi qələbəsi ilə sübut etdi ki...

Bu böyük qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək gücündədir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin dediyi kimi, atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın: "Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

2020-ci il noyabrın 8-də Qarabağımızın incisi olan Şuşanın erməni terrorçularından təmizlənməsi ilə Qarabağa qovuşmağımızın əsas mərhələsi başa çatmış oldu. Şuşa şəhərinin azad edilməsi ilə Qarabağ münaqişəsinə nida qoyuldu və Ermənistan rüsvayçı məğlubiyyətini qəbul edib, təslimçilik aktını imzaladı. Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən, Qarabağın heç bir xüsusi statusu olmayacaq. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Noyabrın 10-da şanlı qələbəmizin təsdiqi olan üçtərəfli Bəyanatın imzalanması müjdəsini xalqa çatdırarkən Prezident İlham Əliyev demişdir: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 10 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi". Noyabrın 10-da dostları sevindirib, düşmənləri xar edən Qələbə Paradı keçirildi. Qürurverici məqamlardan biri də ondan ibarət idi ki, müharibənin ilk günündən ürəyi, qəlbi Qarabağla döyünən qardaş Türkiyənin hakimiyyəti, xüsusilə də Prezident Rəcəb Tayyib Ərdoğan Qələbə Pardında da Azərbaycanla birlikdə oldu. "Tarix təkrar olunur"-deyiblər. 100 il bundan əvvəl Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Milli Ordusu ilə birlikdə Bakını erməni daşnaklarından azad etmişdir. Uğurlu hərbi əməliyyatlarla Azərbaycanın bütün bölgələri erməni terrorçularından təmizlənmişdir. Bu gün də, ulularının qardaşlıq dəstəyini əsirgəməyən Türkiyə qardaşlarımız başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla erməni vandallarının Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağdan təmizlənməsində Azərbaycana mənəvi, siyasi dəstəyini əsirgəmədi.

## Zəngəzur, Göyçə, İrəvan bizim tarixi torpaqlarımızdır

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda keçirilən Zəfər paradında çıxışı zamanı bildirdi ki, Türkiyə hər zaman Azərbaycanın yanında olacaq: "İnanıram ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dastan yazmağa davam edəcək. Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin "iki millət, tək dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik".

Qələbə Paradında Türkiyə Ordusunun mehmeçikləri sıra keçidində qürurla və əzmlə keçdilər. Bu məqamda Türkiyə qardaşlarımızın bizə olan hədsiz rəğbətinin daha bir nümunəsi ondan ibarət idi ki, Qarabağda şəhid olan 2783 şəhidimiz sayında mehmetçik sıra keçidində iştirak etdilər. Əhsən belə qardaşlığa, var olsun belə birlik. Söz yox ki, qələbə paradımızın yolu uğurlu və xeyirli olacaq. Qələbə Paradı Azərbaycan Silahlı Qüvvələrinin tarixinə, hərb tariximizə yaddaşlardan silinməyəcək şanlı bir səhifə kimi yazılmaqla yanaşı, həm də zamanında Ermənistana pay olaraq verilən Zəngəzurun, Göyçənin, İrəvanın Böyük Azərbaycan torpaqlarına qatılmasına işartı olacaq. Prezident, Ali Baş Komandan İlham Əliyevin Qələbə Paradında dediyi fikirlər də ümidləri artırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Qələbə Pardında Zəngəzurun, Göyçənin, İrəvan mahalının bizim tarixi torpaqlarımız olduğunu bildirdi: "Azərbaycan 30 ilə yaxın işğal altında yaşayırdı. 90-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti torpaqlarımızın işğal altına düşməsinə səbəb olub. Əslində, Ermənistanın aqresiv təcavüzkar siyasəti hələ 80-ci illərin sonlarından başlamışdır. O vaxt indiki Ermənistan respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb".

## Azad edilən torpaqlarda dalğalanan bayrağımıza qürurla baxırıq

Qələbələrimizin davamı isə 2023-cü il sentyabrın 19-da Qarabağda separatçılara qarşı başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə davam etdirildi. Bu əməliyyatlarla bölgədəki bütün terrorçular zərərsizləşdirildi və terrora rəhbərlik edən Arayik, Quqasyan, Saakyan, Vardanyan və digərləri həbs olunaraq istintaqa təhvil verildi. Yaxın günlərdə isə onlar məhkəmə qarşısına çıxarılaraq layiq olduqları cəzanı alacaqlar. Artıq Xankəndi, Ağdərə, Əsgəran, Şuşa, Xocavənd və işğaldan azad edilən ərazilərimizdə Azərbaycanımızın üçrəngli bayrağı dalğalanır. Aparılan quruculuq, bərpa, tikinti işləri fonunda insanlar öz doğma yurd-yuvalarına qayıdırlar. Bütün bunlar Azərbaycanın gücünün, qüdrətinin nümunəsidir. Bu qələbələrlə Azərbaycan yeni bir tarix yazır. O tarix ki, nə qədər Azərbaycan dövləti və xalqı var, qələbələrimiz mövcud olacaq və millətimizə qürur gətirəcək.

***İLHAM ƏLİYEV***

# ABŞ tərəfindən REVANŞİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİ

***Amerika Birləşmiş Ştatlarının hələ də işğalçını dəstəkləməsi, separatizmə maliyyə yardımı etməsi niyyəti həm təəccüb, həm də təəssüf doğurur. ABŞ boyda bir ölkənin hansısa bir işğalçı dövlətə maliyyə yardımı etmək fikrinin belə nə üçün yarandığını da ümumiyyətlə, başa düşmək çətindir. Amma başa düşmək nə qədər çətin olsa belə, ABŞ Senatının Təsisatlar Komitəsinin Ermənistana 65 milyon dollar yardımı nəzərdə tutan 2025-ci maliyyə ili üçün Xarici Əməliyyatlar haqqında qanun layihəsini təsdiqlənməsi növbəti ədalətsizlik kimi şəksiz olaraq qəbul edilir. Eyni zamanda bunun, məhz revanşizmin maliyyələşməsindən başqa bir niyyətə xidmət etmədiyi zərrə qədər də şübhə doğurmur.***




## ABŞ Senatının hər hansı bir komitəsinin vəsait ayırması niyyəti bəlli məsələdir

Diqqətə çatdıraq ki, Amerika Erməni Assambleyası da öz sevincini gizlətmir və təsdiqlənən qanun layihəsini bərk alqışladığını da bildirir. "Biz Senatın Təxsisatlar Komitəsindən erməni xalqına olan dəstəyi alqışlayırıq", deyə Assambleyanın Konqreslə Əlaqələr üzrə direktoru Mariam Haloyan açıq şəkildə öz fikirlərini ifadə edib. O, hətta Ermənistanın maliyyə yardımına, özü də məhz 65 milyon dollar yardıma ehtiyac duyduğunu da söyləyib və bunu hələ bir utanmadan yalanlarla əsaslandırıb da. Haloyanın sözlərinə görə, guya 44 günlük müharibədən sonra 100 mindən çox erməni əsilli insan, özü də guya vətənlərindən didərgin düşüb və hələ də böyük çətinliklər qarşısında qalıb. Amerika Erməni Assambleyasının Konqreslə Əlaqələr üzrə direktorunun dediklərinə görə, guya indi həmin insanlar çox böyük çətinliklərlə mübarizə aparırlar və onların da məhz göstərilən məbləğə "bərk ehtiyacları" var imiş. Mariam Haloyanın dediklərindən fərqli olaraq, əsl həqiqət ondan ibarətdir ki, əvvəla, erməni əsillilər öz vətənlərindən didərgin düşməyiblər, onlar Azərbaycan tərəfinin vətəndaşlıq təklifindən, bu təkliflə razılaşdırları halda, ərazilərimizdə yaşamağa davam etmək təklifindən imtina edərək, öz xoşları ilə və eləcə də Ermənistan hakimiyyətinin, həmçinin qondarma rejimin təkidi ilə yaşadıqları əraziləri tərk ediblər. Digər tərəfdən də axı ərazilərimizi tərk edənlərin sayı onun dediyi kimi, 100 mindən artıq deyil və onların sayı bu rəqəmin heç üçdə birindən də çox ola bilməz. Həm də Amerika Erməni Assambleyasının Konqreslə Əlaqələr üzrə direktoru haradan bilir və nəyə əsasən belə bir qənaətdədir ki, onların məhz 65 milyona ehtiyacları var? Kim bu rəqəmi onun üçün hesablayıb və bunun doğruluğunu sübut edəcək bircə dənə də olsa arqumenti varmı? Əlbəttə, yoxdur və o çox yaxşı bilir ki, Azərbaycan ərazilərində onillər boyu məskunlaşan və sonra da məskunlaşdıqları əraziləri rəsmi Bakının təkliflərini düzgün dəyərləndirmədən tərk edən ermənilərin sayı onun iddia etdiyindən az olduğu kimi, göstərdiyi rəqəm də qondarmadır. Məsələ burasındadır ki, bütün bunların fonunda ABŞ Senatının Təxsisatlar Komitəsi həmin məbləği nə üçün ayırmaq istədiyini başa düşürük və həmin vəsaitlərin ayrılması niyyəti də, qərarı da nəticədə revanşizmi maliyyələşdirmək deməkdir. Onillər ərzində dünyaya sırımaq istədikləri qondarma qurumun, qonradma rejimin ABŞ tərəfindən tanınmaması fonunda yardım da şərti idi.

## Nəzərdə tutulan əsassız yardım ancaq revanşizmin həvəsləndirilməsi, maliyyələşdirilməsi niyyəti güdə bilər

Nəzərə çatdıraq ki, məhz ABŞ kimi bir dövlətin uydurma "Artsax" adlı qondarma qurumu tanımadığını Haloyan qətiyyən dilə gətirmir və belə bir niyyətinin olmadığı da göz önündədir. Bunun fonunda Mariam Haloyandan məhz eşitdiklərimizdən qeyri nə gözləmək olardı? Yəni, doğrudanmı o bilirmi ki, onların onillər ərzində dünyaya sırımaq istədiyi qondarma qurumu ABŞ tanımayıb. Onu da bilmirmi ki, ABŞ həmin qondarma qurumu tanimadığı halda onun öz ölkəsi Ermənistan, rəsmi İrəvan, şəxsən erməni baş nazir Nikol Paşinyan dəfələrlə Azərbaycanın nəinki ərazi bütövlüyünü, hətta Qarabağ regionunu və anklavlarını da tanıyıb? Bunu ABŞ kimi bir ölkənin Senatının Təsisatlar Komitəsi də bilmir? Bilir. Hətta onu da bilir ki, Təhlükəsizlik Şurasının və BMT Baş Assambleyasının bütün erməni qanunsuz silahlı birləşmələrinin Azərbaycanın müvəqqəti işğal olunmuş ərazilərindən dərhal çıxarılması tələbini əks etdirən qətnamələrinə də Ermənistan tərəfi, rəsmi İrəvan qətiyyən məhəl qoymayıb. Bəs işğalçı ölkənin sözügedən qətnamələrə məhəl qoymamasına niyə belə "mötəbər" beynəlxalq qurumlar susublar? Sadalananları biləbilə Vaşinqtonun özünü bilməməzliyə vurması, həmçinin, bilib susması fonunda hələ də yardım haqqında düşünülürsə, artıq buna başqa don belə geyindirilə bilməz. Bütün sadalananları göz önünə alaraq, yenidən Ermənistana yardım haqqında düşünmək belə ağıla, məntiqə sığmadığı halda, göstərilən və ya nəzərdə tutulan vəsaitin adını nə qoymaq fikirləri var amerikalıların? İşğalçı ölkənin BMT qətnamələrinə məhəl qoymamasına susqunluğun ardınca nəzərdə tutulan əsassız yardım ancaq revanşizmin həvəsləndirilməsi, maliyyələşdirilməsi niyyəti güdə bilər və elə adını da belə qoysaq daha doğru olar.

## Revanşizmin alovlandırılması üçün maliyyə dəstəyi edən amerikalıların mənasız ciddi cəhdləri

Soruşmaq ayıb olmasın, vəsait indi daha çox kimə lazımdır, başqalarının ərazisinə soxulub, işğal edib, sonra da həmin əraziləri viranə qoyanlara, yoxsa həmin ərazilərdə əllərindən gələni əsirgəməyənlərə? Əraziləri dağıdanlara vəsait ayırarlar, yoxsa, həmin ərazilərdə bərpa-quruculuq işləri aparanlara? Qonşu ölkələrdə başqalarına məxsus əlvan metal, filiz yataqlarını qarət edənlərə maliyyə yardımı edilməlidir, yoxsa dağıdılmış infrastrukturu bərpa edənlərə? Bəlkə, yardım haqqında düşünən ABŞ, rəsmi Bakının quruculuq işlərinə nə qədər vəsait xərclədiyini də bilmir? Bilir, hətta tam xırdalıqlarına qədər bilir. Və nəhayət, torpaqları minalayanlara, mina basdıranlara, xəritəsini də verməyənlərə maliyyə yardımı ayrılmalıdır, yoxsa torpağı minalardan təmizləyənlərə? Sözsüz ki, torpağı minadan, partlamamış silah-sursatdan təmizləyənlərə vəsait ayrılmalıdır. Çünki öz ərazilərini, öz dədə-baba yurdlarını istifadəyə yararlı hala salmaq, torpaqları minalardan, partlayıcı sursatlardan təmizləmək üçün vəsait gərəkir və bunu da qarşılayan qalib ölkə olan Azərbaycandır, Ermənistan yox. Elə isə nəyə görə Ermənistana yardımlar haqqında düşünülür. Doğrudur, ölkəmizin yardıma qətiyyən ehtiyacı yoxdur və müharibədə qələbəni də özümüz əldə etmişik. Bizim heç müharibə dönəmində belə hansısa yardımlara ehtiyacımız olmayıb və dövlətimizin daxili imkanları hesabına qələbəni ən qısa zamanda gerçəkləşdirdiyini də bütün dünya, eləcə də amerikalılar yaxşı görüblər. Görüblər deyə bilirlər ki, indi ermənilərə, Ermənistana maliyyə dəstəyi etmək niyyətinə düşməklə, revanşizmi alovlandıra bilərlər.

***İnam Hacıyev***

# İyrənclik rəmzi...

## Paris Olimpiadasında pedofilin Olimpiadada iştirakına icazə verildi

***Paris-2024-də baş verənlər bütün mənalarda rəzillikdir, həm də olimpiya oyunlarının təşkiatçıları tərəfindən aylarla hazırlıq görülmüş, bir neçə dəfə keçirilmiş məşqlərdən sonra təsdiq olunmuş proqramlardır. Yəni, burada təsadüfi kadrlar ola bilməzdi. Deməli Fransa dövləti bu rəzilliyi, biabırçılığı özü təşkil edib. Olimpiya Oyunlarının açılış mərasimində saqqallı qadın və qadın paltarı geyinmiş kişilərin ifasında "Son şam yeməyi"nin parodiyası nümayiş etdirilib.***

Bütün dünya liderləri mərasimdə İsa Məsihin surətinin təhqiramiz şəkildə nümayiş etdirilməsini pisləyiblər. Parisdə İsa Məsihin təsvirinin təhqiramiz olduğunu və bütün qırmızı xətlərin keçildiyini bildirib, xristianlığın zəngin tarixi olan Fransanın utanmalı olduğu qeyd edilib. Fransanın bu addımı bütün dünyanın, o cümlədən ölkə yepiskopunun kəskin tənqidinə səbəb olub. Paris Olimpiadasının təşkilat komitəsi qalmaqallı parodiyaya görə üzr istəyib. Fransanın paytaxtı Parisdə 24 iyuldan start götürən və avqustun 11-nə qədər keçiriləcək Yay Olimpiya Oyunlarda bir sıra qəribə məqamlar diqqət çəkib. Bunlardan biri Olimpiya Oyunlarının rəsmi açılış mərasiminin videosunun rəsmi sayt və "YouTube" kanalından silinməsidir.

Yay Olimpiya Oyunlarının Təşkilat Komitəsindən verilən açıqlamaya görə, bu addım geo bloklama ilə bağlıdır. "Geo bloklama" termini daha çox internetdə filmlər və televiziya şouları kimi premium multimedia məzmununa girişin məhdudlaşdırılması, müəllif hüquqları və lisenziyalaşdırma kimi səbəblər ilə əlaqəlidir. Bu oyunların rəsmi açılış mərasimi ilə bağlı ilk belə skandal deyil. Belə ki, Fransanı tənqid atəşinə tutanlar arasında ABŞ-nin Nümayəndələr Palatasının sözçüsü Mayk Conson, italiyalı siyasətçilər və parlamentarilər, Macarıstanın Baş naziri Viktor Orban, "Tesla"nın baş direktoru İlon Mask da var. Açılış mərasiminin tənqid olunmasının səbəblərindən biri tədbir zamanı Leonardo Da Vinçinin məşhur əsəri olan şam yeməyinin təsviri olub. Xristianlar üçün müqəddəs hesab edilən bu hadisənin çılpaq müğənni tərəfindən təqdimatı birmənalı qarşılanmayıb. Performans zamanı bir masanın ətrafına toplaşan və İsa Məsihlə onun 12 həvarisinin portretini xatırladan bu çıxış ciddi tənqidə məruz qalıb. Fransanın katolik kilsəsi sosial şəbəkə hesabında tədbirlə bağlı etirazını bildirib. "Təəssüf ki, bu mərasimdə xristianlığı ələ salan səhnələr var idi və biz bundan çox təəssüflənirik", - deyə məlumatda qeyd olunub.






Milyarder İlon Mask Paris Olimpiadasının açılış mərasiminin xristianlara qarşı hörmətsizlik olduğunu bildirib. Bu barədə o, "X" sosial şəbəkəsində mərasim iştirakçılarının Leonardo da Vinçinin "Sonuncu şam yeməyi" əsərinə parodiya etdikləri videoya münasibət bildirərkən yazıb. "Bu, xristianlara qarşı son dərəcə hörmətsizlik idi" - Mask bildirib. "Sonuncu şam yeməyi" əsəri XV əsrdə Milanda Leonardo da Vinçi tərəfindən, Lodoviko Sforsa və onun xanımı Beatriçe d'Este üçün yaradılmış divar rəsmidir. Rəsm əsərinin mövzusu Yəhya İncilində 13:21 təsvir edilmiş İsanın sonuncu şam yeməyi mövzusundan götürülüb. Bu şam yeməyi zamanı İsa on iki həvarisindən birinin ona xəyanət edəcəyini və onu satacağını bildirmişdi.

Ümumiyyətlə, Parisdəki Olimpiya Oyunların açılış mərasimi bir neçə kazus vəziyyətlə yadda qalıb. Eyfel qülləsinin yaxınlığındakı Olimpiya bayrağı bayraq dirəyinə tərsinə asılıb, stadionun diktorları KXDR nümayəndələrini Cənubi Koreyadan olan idmançılar kimi elan ediblər. Tamaşaçılar olduqları yerlərdən keçidin baş tutacağı yeri yaxşı görə bilmədiklərinə görə hələ mərasim başlamamış tribunaları tərk etməyə başlayıblar. Qalanlar isə mərasimi üstü açıq tribunada leysan yağış altında seyr etməli olublar.

Yay Olimpiadasının açılış mərasimində Fransanın dövlətə məxsus "France2" telekanalının aparıcısı Loran Delausun milli komandaların keçidi zamanı səsləndirdiyi fikirlər böyük qalamaqala səbəb olub. Fransız teleaparıcı Azərbaycan və Ermənistan idmançılarının keçidi zamanı ayrı-seçkilik edib, Azərbaycanı Ermənistanla hərbi toqquşmalarda günahlandırıb. Erməni idmançılar paraddan keçərkən, o deyib: "Və təbii ki, bizim dostlarımız ermənilərdir. Ermənistan tarixən fransızların qəlbinə yaxın bir ölkədir. Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan ordusunun əlinə keçməsi və itirilməsilə nəticələnib".

Fransa telekanalının bu təxribatı diplomatlar arasınmda mübahisəyə də səbəb olub. Fransanın Ermənistandakı səfiri Olivye Dekotini "X" sosial şəbəkəsində "Frans2" telekanalının aparıcısının sözlərini sitat olaraq paylaşıb. Azərbaycan Respublikasının Niderland Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev isə "X" sosial şəbəkəsində fransız teleaparıcı və səfirə cavab verib. "Ermənilər təbii ki, sizin dostlarınızdır. Amma Qarabağın "yıxılması" deyil, onun yeniləşməsi, dirçəlişi başlayır, gözəl perspektivləri açılır. Ermənilər "yaxşı oğlanlar" olsalar, bu perspektivlərdən yararlana biləcəklər", - deyə azərbaycanlı səfir fransızca onlara cavab yazıb. Rəhman Mustafayevin reaksiyası Fransanın Ermənistandakı səfiri Olivye Dekotinini özündən çıxarıb. O, "Qarabağ ermənilərinin öz evlərinə qayıtmaq hüququ var", - deyə "X" platformasında azərbaycanlı səfirin paylaşımına qarşı qəzəbini ifadə edib. Əlbəttə, Fransanın "France 2" telekanalının Olimpia Oyunlarının prinsiplərinə yad mövqe sərgiləməsi və Bakının ünvanına səsləndirdiyi qərəzli və yalançı fikirlərlə bağlı Beynəlxalq Olimpiya Komitəsinə (BOK) şikayət edilib.

### Olimpiadada pedofil hollandiyalı

Olimpiadada uşaq təcavüzünə görə məhkum edilmiş hollandiyalı Stiven van de Veldenin çimərlik voleybolu yarışında iştirakı ilə bağlı qalmaqal yaranıb. Tamaşaçılar onu səs-küylü etirazlarla oyunu tərk etməsini istəyiblər. Amma nə BOK, nə də Hollandiya komandasının nümayəndələri problem anlasalar da onun oyunu tərk etməsini başa düşməyiblər.

Eyfel qülləsini dolduran günəş işığı Olimpiya hərəkatının tarixinin ən qaranlıq fəsillərindən biri üçün uyğun olmayan fondur. Parisin böyük simvolunun ətəyində mavi səma altında çimərlik voleybolu, şəhərin üstündə uçur - görünür, xoşbəxtlik üçün başqa nə lazımdır? Bununla belə, tamaşaçılar bəyənməyərək - getdikcə daha yüksək və israrla hollandiyalı pedofil oyunçunu fitə basıblar. Axı, Stiven van de Velde parlaq narıncı formada qum üzərində çıxış etməsi, dünyada ilk onluğa daxil olması ilə deyil, uşaq təcavüzünə görə məşhurdur. Səkkiz il əvvəl, Amsterdamdan Milton Keynsə birlikdə getdiyi 12 yaşlı qızı zorladığına görə onu dörd il həbs cəzasına məhkum edən Aylesberi hakimi ona deyib: "Sən olimpiyaçı olmaq üçün məşq edirdin. Amma indi ölkəmi təmsil etmək ümidlərim puç olub". Bununla belə, o, burada heç nə olmamış kimi dünyanın ən yüksək səhnəsində Hollandiyanın "şərəfini" qoruyur.

***Ardı Səh. 6***

# İyrənclik rəmzi...

## Paris Olimpiadasında pedofilin Olimpiadada iştirakına icazə verildi



Əvvəli səh. 5

Hollandiya nümayəndə heyəti yorulmadan israr edir ki, Van de Velde dəyişib. Deyirlər ki, o, zorlamanı törədəndə 19 yaşında idi, indi isə 29 yaşındadır və Olimpiya Komitəsinin dediyi kimi, "yaxın nəzarət altında reabilitasiya prosesi" keçib.

O, almaniyalı beynəlxalq çimərlik voleybolçusu Kim ilə evlidir və iki yaşlı oğlu var. Hollandlar deyirlər ki, bu, bərpaedici ədalət prinsipləridir, hətta cinayəti dərindən iyrənc olan cinayətkarın həyatını yenidən qurmasına və cəmiyyətə qayıtmasına icazə verilir.

Bununla belə, cəmiyyətə qayıtmaq hüququ ilə olimpiyaçının uğurları arasında böyük fərq var. Parisdə keçirilən yarışın bütün iştirakçıları tərəfindən imzalanan İdmançıların Bəyannaməsinin yeddinci maddəsində heç bir söz kəsilmədən deyilir: "Nümunə ol". O, azad insan ola bilər, amma heç bir halda nümunə deyil - Van de Velde bu epiteti çoxdan və dönməz şəkildə itirib. Van de Velde və onun ortağı Metyu İmmers qrup mərhələsində İtaliyaya qarşı ilk oyununda məğlub oldular. Bununla belə, nəticə yalnız oyundan sonrakı müsahibə sahəsində son dərəcə gərgin səhnələrin müqəddiməsi idi. Van de Velde üç mühafizəçinin müşayiəti ilə tez bir zamanda otaqdan çıxarılıb.

Van Vliet bütün razılaşmaların BOK tərəfindən dəqiqləşdirildiyini təsdiqləyib. Lakin dünyanın idarəedici orqanı qalmaqaldan tez uzaqlaşıb. BOK-un sözçüsü Mark Adams: "Aydındır ki, ilkin seçimi Hollandiya Milli Olimpiya Komitəsi edir. Onlar gördükləri əlavə təhlükəsizlik tədbirləri ilə bağlı geniş bəyanat yayıblar. Mən bunu heç bir şəkildə qəbul etmirəm, amma bu, on il əvvəl baş verib və düşünürəm ki, biz reabilitasiya imkanlarına imkan verməliyik".

Van de Veldenin iştirakının qızışdırdığı qəzəb dalğasını nəzərə alsaq, bu, tamamilə absurd cavabdır. Hollandiyalılar onu



nəinki milli komandaya seçərək qəhrəman edib, həm də ona digər iştirakçılarda olmayan səlahiyyətlər verib. Məcburi media vəzifələrindən azad olmaqla yanaşı, ona Olimpiya kəndindən kənarda yaşamağa icazə verilib. Bununla belə, Van Vliet onun hələ də millinin düşərgəsində iştirakına icazə verildiyini təsdiqləyib.

Daha dəhşətlisi isə Van de Veldenin Olimpiya səhnəsində təltif edilməsidir. Bu, Böyük Britaniya, ABŞ və Avstraliyada şok və çaşqınlıq yaratsa da, Hollandiya məsələyə çox normal yanaşıb. Görünür , hollandiyalı siyasətçilər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Bir millət, iki dövlət"prinsipindən çıxış edərək "Qarabağa girdiyimiz kimi, İsrailə də girərik" fikirlərini izi azdırmaq üçün qəzetlərin manşetinə gətiriblər. Hollandiyanın sağçı Azadlıq Partiyasının lideri Geert Vilders Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı "islamofaşist" adlandırıb. O, Türkiyənin NATO-dan çıxarılmasını tələb edib. "İslamofaşist Ərdoğan İsraili işğal etməklə hədələyir. Türkiyə NATO-dan çıxarılmalıdır", - deyə siyasətçi X sosial şəbəkə hesabında yazıb.

İyulun 27-də İsrailin nəzarətində olan Qolan təpələrinin bir hissəsi Livan ərazisindən kütləvi atəşə məruz qalıb. İsrail ordusunun məlumatına görə, mərmilərdən biri Qolan təpələrində uşaqların olduğu futbol meydançasına düşüb. 10-20 yaş arası 12 nəfər həlak olub, onlarla insan yaralanıb. İsrail, zərbələrin Hizbullah tərəfindən İran raketlərindən istifadə edərək həyata keçirildiyini bildirir. Hərəkat hücumlarda iştirakını rədd edir.

Polşa xarici işlər nazirinin müavini Teofil Bartoşevski isə bir az da irəli gedərək Macarıstanın baş naziri Viktor Orbanın Qərb ölkələrinin Rusiyaya qarşı hərəkətlərinin irrasional olması barədə bəyanatını şərh edib. Cənab Bartoşevski Rusiya Federasiyası ilə müttəfiqlik etmək istədiyinə görə Macarıstanın Avropa İttifaqı və NATO-dan çıxmasını təklif etdi. "Həqiqətən başa düşmürəm ki, Macarıstan niyə bu qədər sevmədiyi və guya ona bu qədər pis münasibət bəsləyən təşkilatların üzvü olaraq qalmaq istəyir. Niyə Viktor Orban Vladimir Putin və bu tipli bəzi avtoritar dövlətlərlə ittifaq yaratmasın?" - Teofil Bartoşevski deyib. Polşa xarici işlər nazirinin müavininin sözlərinə görə, Macarıstanın siyasəti Avropa İttifaqında qüvvələr balansının dəyişməsinə gətirib çıxarıb və həm də Aİ, Polşa və Ukraynaya qarşı yönəlib. O, həmçinin Budapeştin indi "beynəlxalq ictimaiyyətin kənarında" olduğunu söyləyib.

Viktor Orban iyulun 27-də bildirib ki, Ukraynada münaqişənin başlamasından sonra Rusiyaya qarşı çıxan bir çox ölkələr öz mövqelərindən uzaqlaşırlar. O əlavə edib ki, Qərbin əsas problemi onun parçalanmasıdır və bu ölkələrin hərəkətləri gözlənilməzdir. Onun sözlərinə görə, Rusiya çeviklik və görkəmli iqtisadi canlılıq nümayiş etdirib.

### Parisə qayıdaq...

Slovakiya Parisdəki Olimpiya Oyunlarının bağlanışında iştirak etməyəcək. Bu barədə baş nazir Robert Fitsonun müavini Tomas Taraba Feysbuk səhifəsində məlumat verib: "Bağlanış mərasimində Slovakiyanı təmsil etməli idim. Lakin bu Olimpiada həmişə idmanın gözəlliyindən sui-istifadə edən, onu mütərəqqi siyasi teatra çevirən iyrənclik rəmzi olaraq qalacaq. Buna görə də bağlanış mərasimində iştirak etməmək qərarına gəldim".

Parisdə Yay Olimpiya Oyunlarında başqa bir rüsvayçılıq da baş verib. Mənbənin sözlərinə görə, yapon reqbiçinin nikah üzüyü və üç min avrosu oğurlanıb, Avstraliya bandi komandasının məşqçisinin isə bank kartı oğurlanaraq 900 avro pulu çıxarılıb. Qeyd olunur ki, zərərçəkmişlərin otaqlarında məcburi içəri girmə izləri aşkar edilməyib.

Bundan əvvəl, iyulun 26-da Braziliya futbolunun əfsanəsi və ÇSKA-nın keçmiş baş məşqçisi Zikonun da Parisdə qarət edildiyi məlum olub. Ondan içərisində brilyant qaşlar, Rolex saatı, boyunbağı və nağd pul olan çamadan oğurlanıb. Ümumi ziyan 540 min dollar təşkil edib. İyulun 25-də Argentina Olimpiya komandasının yarımmüdafiəçisi Tiaqo Almada Parisdə quldurların qurbanı olub. Cənubi amerikalıların baş məşqçisi Xavyer Maskerano olimpiya turnirinin qrup mərhələsinin ilk turunun Mərakeş millisi ilə oyunundan sonra TyC Sports-a müsahibəsində bunu açıqlayıb.

***V.VƏLİYEV***

# Ana dilim-şirin dilim...




(”Ana Dili” abidəsi önündə düşüncələr)

Göz açıram dünyaya mən: bura hara? Azərbaycan. Layla çalır başım üstə müqəddəs bir varlıq olan anam mənim, layla çalır ana dilim. Yuxularım yoğurulur bu şirin dildən. Bədənimə dolur bənzərsiz bir sevgi, istək ana dildə: ” Lay-lay dedim yatasan sən, şirin yuxu tapasan sən ”

Günlər keçir Ana dili hopmuş sözlər mənə duyğu, qanad verir. Böyüyürəm, ana dilim yavaş-yavaş öz dilimdə səslənir, bax: ”A” deyirəm, sonra da ki, ”N” deyirəm. Anam bir gün sevincindən şaşıb qalır: balam ”ana” söyləyir ki! Sonra isə yavaş-yavaş danışıram, ”Azərbaycan” deyirəm, ana dilim Azərbaycan dilində.

Aylar keçir Ana dildən ilham alıb, qol-qanad açıram mən, böyüyürəm, oynayıram, uşaqları çağırıram ana dildə. Söhbətləşib, gəzişirik şirin dildə. Bir-birimizi başa düşür, hiss edirik ana dildə.

İllər keçir Boya-başa çatmışam mən. Altı yaşlı bir fidana varmışam mən. Budur, bir Azərbaycan məktəblisi olmuşam mən. Yollanıram sevinclə mən, tələsla mən, ana dildə daha nələr öyrənməyə

Günlər keçir Evdə anam, məktəbdə müəllimim əlimdən tutur mənim. Bax, bu nədir, bu gün mənə verdi müəllim? ”Əlifba”dır. İlk hərfi öyrənirik. O, ”A”-dır, ana dilim Azərbaycan, doğma Vətən Azərbaycan bu hərflə başlayır ki! Günlər keçir, aylar ötür Ana dildə ”A”-dan ”Z”-yə ”Əlifba”nın hərflərini öyrənirəm. Ana dildə nağıllar, hekayələr, rəvayətlər oxuyuram. Çoxlu şeir, nəğmələr də öyrənirəm. Azərbaycan-odlar yurdum, göz bəbəyim, ürək param söyləyirəm. Ana dildə ”Əlifba”dan gör bir nələr öyrənirəm?

İllər ötür, ana dilim-doğma dilim, şirin dilim, bağlanıram bir qırılmaz tel ilə mən, sənə dilim. Çünki hər kəslə bu dildə dil tapıram. Ana, ata məhəbbətin mən bu dillə qazanıram. Dost tapıram ana dildə, ürək açıb, sirr verirəm ana dildə. Oxuyuram, sual verib, cavab alıb, elmləri əxz edirəm ana dildə, böyüyürəm şirin dildə.

Azərbaycan- ana dilim, indi varlığıma hakimsən. Sənlə yoğrulan bədənin sənlə ötən illərisən. Bu illərdə ana dilim-şirin dilim, gör, mənə nələr öyrətmisən? Dərk edərək həyatı mən yetkinləşdiyim andan səndən qeyri özüm üçün heç bir həmdəm tanımıram. Anam mənim Azərbaycan, doğma Vətən Azərbaycan, şirin dilim Azərbaycan. Sənlə qürur duyuram mən. Sənə bağlı olduğumçün səndən ayrı yaşamağı heç bir zaman sanmıram mən. Buna görə ana dilim, doğransam da dilim-dilim, başqa dilə çönən deyil. Şirin laylanla oxşayıb böyütdün axı bizləri sən. Bundan sonra haqqım nədir səndən qeyri bir dilə mən çönüb baxam. Yəni səndən şirin, səndən doğma bir dil varmı bu dünyada?

***Mətanət Məmmədova***

# Ermənistan-Türkiyə sərhədi açılacaqmı?

Ermənistan və Türkiyənin xüsusi nümayəndələri Ruben Rubinyan və Serdar Kılıç ölkələrinin sərhədində görüşüblər. Danışıqların birinci hissəsi Ermənistan, ikinci hissəsi isə Türkiyə tərəfində baş tutub. İrəvan və Ankara iki ildən artıqdır ki, kommunikasiyaların bağlanmasını planlaşdırır, lakin türklər ermənilər Azərbaycanla sülh razılaşmasına çatana qədər görüşü hələlik məhsuldar səviyyəyə çatdırmaq istəmirlər. Bu, İrəvan və Ankara üçün ilk belə təcrübədir. Bundan əvvəl xüsusi nümayəndələr bir dəfə Moskvada, üç dəfə Vyanada görüşüblər, lakin o vaxtdan iki ildən bir qədər çox vaxt keçib. Maraqlıdır ki, 2022-ci il iyulun 1-də Avstriyanın paytaxtında tərəflər üçüncü ölkə vətəndaşlarının və diplomatik pasportlara malik olan şəxslərin quru sərhədini mümkün qədər tez keçmək imkanını təmin etmək barədə razılığa gəliblər. Lakin müqavilə hələ də icra olunmayıb. Beşinci görüş ikitərəfli münasibətlərin normallaşması istiqamətində daha bir kiçik addım olsa da, heç bir sensasiya gətirməyib. Beləliklə, tərəflər bütün əvvəlki razılaşmaları təsdiqləyib və Ahurik-Akyaka dəmir yolu sərhəd-keçid məntəqəsinin işə salınması üçün imkanlar yaradacaq texniki ehtiyacların qiymətləndirilməsi, habelə diplomatik/xidməti pasportlara malik olan şəxslər üçün viza prosedurlarının qarşılıqlı sadələşdirilməsi barədə qərar qəbul ediblər.

Eyni zamanda, danışıqların özü 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi fonunda bağlanmış Marqara keçid məntəqəsinə baxışla başlayıb. Sərhədin tezliklə açılmasına ümid edən Ermənistan hakimiyyəti danışıqlardan bir qədər əvvəl, iyulun 26-da respublikanın baş naziri Nikol Paşinyan tərəfindən onun modernləşdirilməsinə 2,5 milyon dollar yatırılıb. Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyan əmin edib ki, bütün işləri qısa müddətdə başa çatdırılacaq. Lakin bu, istisna hal kimi də olsa, artıq 2023-cü ilin fevralında edilib. Daha sonra İrəvan 100 ton humanitar yardım köçürməklə Ankaraya Türkiyənin cənub-şərqində baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmağa kömək edib.




Bu arada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan xüsusi nümayəndələrin görüşü ərəfəsində qalmaqallı açıqlama verib ki, ona görə də Ankara Qarabağda olduğu kimi İsrailə də girə bilər. Bununla bağlı Türkiyənin sadiq müttəfiqi hesab edilən Azərbaycan hakimiyyəti təkzib verib. ”Hər hansı ölkənin hərbi qulluqçularının Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı hərbi əməliyyatlarda iştirakı ilə bağlı bəyanatların heç bir əsası yoxdur”, - deyə Müdafiə Nazirliyinin bəyanatında bildirilir. Bildiyiniz kimi, Azərbaycan prezidenti İlham Əliyev dəfələrlə etiraf edib ki, Türkiyənin köməyi olmasaydı, Qarabağ uğrunda 44 günlük müharibədə qalib gəlmək ”çətin olardı”. O, eyni zamanda, 2020-ci ilin payızında əldə edilən hərbi uğurlarda Azərbaycan ordusunun həlledici rolunu daim vurğulayırdı. Erməni KİV-ləri isə ikinci Qarabağ müharibəsi zamanı döyüş bölgəsində türk muzdluları haqqında fəal şəkildə məlumat yayıblar. Onlar bir məsələni də unudurdular ki, Vətən müharibəsində döyüşən zabitlərin bir qismi həm də qardaş Türkiyənin hərbi akademiyalarında müəyyən müddətə kurslar keçmişdilər. Onların döyüş stili, danışıqlarındakı ifadələr, hərbi terminlər Türkiyə hərbçilərininki kimi idi.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Kiprə səfəri çərçivəsində jurnalistlərə açıqlamasında İrəvanın Bakı ilə sülhə hazır olduğunu bildirib. Eyni zamanda o, Ermənistanın sərhəd insidentinin, eləcə də silahlara nəzarət mexanizmlərinin yaradılması təşəbbüslərinin hələ də azərbaycanlı həmkarlarının dəstəyini almadığını, lakin təkliflərin qüvvədə qaldığını bildirib. ”Hesab edirəm ki, biz indiki tarixi andan düşmənçilik səhifəsini bağlamaq və mühüm yol ayrıcında olan bütün regionun iqtisadi inkişafı və çiçəklənməsi üçün daha yaxşı gələcək hazırlamaq üçün istifadə etməliyik”, - Mirzoyan vurğulayıb. Buna baxmayaraq, Azərbaycan hakimiyyəti əmindir ki, erməni həmkarları sülhü yalnız sözlə istəyirlər. Xüsusilə, Prezident İlham Əliyev Paşinyanı Avropa Birliyinin iyunda keçiriləcək sammiti çərçivəsində Londonda danışıqlar aparmaq istəməməkdə ittiham edib. ”Əgər Paşinyan mənimlə danışmaq istəməyibsə, o zaman hansı sülh müqaviləsindən danışa bilərik? - Əliyev əsəbiləşib. Lakin Ermənistan Xarici İşlər Nazirliyi təmasdan imtina edənin azərbaycanlıların olduğunu iddia edib.

”Mirzoyan hər həftə Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edir. Amma bunun üçün İrəvan öz Konstitusiyasını dəyişməlidir ki, Bakıya qarşı ərazi iddialarına istinad olmasın. Azərbaycan hakimiyyətinin ikinci tələbi ondan ibarətdir ki, Azərbaycan və Ermənistan Minsk Qrupundan birgə çıxdığını elan etsin. Bakı Qarabağ üzərində öz suverenliyini bərpa etdikdən sonra ona olan ehtiyac aradan qalxdı... Uduzan qalibin şərtlərini qəbul etməlidir”, - ”Atlas” Azərbaycan Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib. Onun sözlərinə görə, Azərbaycanın tələbləri ağlasığmaz deyil, lakin Ermənistan bu tələbləri yerinə yetirməsə, Bakı qonşusunun silahlanmasına biganə qalmayacaq.

***V.VƏLİYEV***

## ”Bakcell”in dəstəyi ilə qadınlar üçün İKT üzrə təlimlər başladı

“Bakcell” şirkətinin dəstəyi iləqadınların İKT üzrə bilik və bacarıqlarının artırılmasına yönəlmiş xüsusi təqaüd proqramıdavam edir. Proqramçərçivəsində iki ay müddətində baş tutacaq ixtisas təlimlərinə start verilib. ”Maya Hacıyeva adına İKT bacarıqları” təqaüd proqramı”WomeninTech” (WIT) beynəlxalq təşkilatı və Təhsilin İnkişafı Fondunun (TİF) birgətəşkilatçılığı, ”Bakcell” şirkətinin dəstəyi ilə həyata keçirilir. Seçim mərhələsini uğurla keçmiş 15-




45 yaşaralığında olan xanımlar iki ay ərzində UX/UI dizayn, kibertəhlükəsizlik, rəqəmsal marketinq və digər ixtisaslara yiyələndikdən sonra işlə təmin olunacaqlar.

”Təqaüd proqramına dəstək göstərməkdə əsas məqsədimiz Azərbaycan xanımları arasında informasiya texnologiyaları sektoruna dair məlumatlılıq səviyyəsini yüksəltmək, onları gələcəkdə bu sahə üzrə karyera qurmağa həvəsləndirməkdir. Şirkətimiz özünü inkişaf etdirməyə həvəsli olan xanımlara hər zaman dəstək göstərməyə hazırdır”,- deyə ”Bakcell”in baş icraçı direktoru Klaus Müller bildirib. Azərbaycanın ilk riyaziyyatçı qadın alimi Maya Hacıyevanın adınaolan təqaüd proqramı2023-cü ildə təsis edilib. Proqramın məqsədi cəmiyyətin inkişafında bilavasitə rolu olan qadınların gələcəyin peşələrinə yiyələnərək iqtisadi azadlıqlarını əldə etmələrinə, öz arzularını reallaşdırmağa dəstək göstərməkdir. Qadınların təhsil və məşğulluq imkanlarının artırılması ”Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlayır.

## Yanmayan bonuslar ”Nar”ın ”Full” tariflərində!

Sərfəli operator”Nar” hər müştəriyə uyğun ”Full” paketlərini təqdim edir. ”Nar” müştəriləri ”Full” paketlərini seçərək həm danışıq, həm də internet bonusları əldə edə bilər. Hər bir ”Full” paketində müştərilərə təqdim edilən bonusların qalıqları ay sonunda silinmir, növbəti aya keçir. Üstəlik, hər bir ”Full” istifadəçisi ”Nar”ın ”Çevir” xidmətindən istifadə




edə bilər. ”Çevir” xidməti istifadəçiyə ehtiyac olduğu halda danışıq bonusunu internet bonusuna və ya əksinə çevirməyə imkan verir. Daha yuxarı ”Full” paketlərində (Full 29, Full 39 və Full 49) istifadəçilərə daha çox bonuslarla yanaşı rouminq dəqiqələri və rouminq interneti də təqdim edilir. ”Full 6” paketində isə internet bonusundan əlavə, ”WhatsApp” və ”Messenger” tətbiqləri üçün nəzərdə tutulan 1GB internet də təklif olunur. ”Nar”ın bütün ”Full” paketləri haqqında məlumatı və tarifə keçid üsulunu nar.az saytından əldə edə bilərsiniz. ”Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. ”Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Şəhər günü-QÜRUR günü...

## *Tarixi Sərəncamdan bir il ötür*

**“Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə yenidən qürur hissi yaşadıq. Çünki Sərəncamda da deyildiyi kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Bəli, biz illər, əsrlər sonra da bu şanlı Zəfərin qürurunu yaşayacağıq. Bu qüruru ərazilərimizin işğaldan azad olunduğu tarixlərlə qeyd etməyimiz isə bizim haqqımızdır. Çünki 30 ildə həmin o torpaqların, o şəhərlərin işğalından yetərincə bəhs etmişik, kədərlənib-hiddətlənmişik, ağlayıb-sızlamışıq, köks ötürmüşük. İndi isə o şəhərlərin sevincini yaşamalı, bu şanlı tarixi günləri tariximizin ön səhifələrinə yazmalıyıq.







- 26 avqust – #Laçın şəhəri günü
- 4 oktyabr – #Cəbrayıl şəhəri günü
- 17 oktyabr – #Füzuli şəhəri günü
- 20 oktyabr – #Zəngilan şəhəri günü
- 25 oktyabr – #Qubadlı şəhəri günü
- 8 noyabr – #Şuşa şəhəri günü
- 20 noyabr – #Ağdam şəhəri günü
- 25 noyabr – #Kəlbəcər şəhəri günü.




### 26 avqust - Laçın şəhəri günü

Sərəncamda qeyd edildiyi kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

2020-ci ilin həmin gününü- dekabr ayının 1-ni qürurla xatırlayırıq. Dövlətimizin başçısı yenə xalqa müraciət edirdi: ”Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq”.

Müraciətdə daha sonra deyilirdi: Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir.

Budur, artıq 26 avqust Azərbaycan təqvimində Laçın şəhəri günü kimi qeyd olunur. Həmin gün Laçından-onun dünənindən, bu günündən qürurla danışır, yazırıq.

### 4 oktyabr - Cəbrayıl şəhəri günü

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev: Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdır. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

23 avqust 1993-cü il tarixində rayon Ermənistan ordusu tərəfindən işğal edilmiş, yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuş, işğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymişdir. Cəbrayıllı məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, çadır düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdılar. 4 oktyabr 2020-ci ildə rayonun mərkəzi və bir sıra kəndləri işğaldan azad olunaraq yenidən Azərbaycan torpaqlarına birləşdirildi.

Cəbrayılın sentyabrın 27-də Böyük Mərcanlı, Nüzgar, oktyabrın 3-də Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq, 4-də Cəbrayıl şəhəri və Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Decal, 5-də Şıxəli Ağalı, Sarıcalı, Məzrə, 9-da Qaracallı, Süleymanlı, Əfəndilər, 15-də Doşulu, 19-da Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri və əhəmiyyətli yüksəklikləri, mövqeləri, bu ərazilərin fonunda isə Xudafərin işğaldan azad edildi. Oktyabrın 18-də-Azərbaycanın Dövlət Müstəqilliyi günündə Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı.

Ötən ildən etibarən 4 oktyabrı Cəbrayıl şəhəri günü kimi qeyd edirik. Cəbrayılın işğalından, azadlığından, bugünkü inkişafından, yaxın gələcəkdə isə əhalisinə qovuşmasından söhbət açırıq.

### 17 oktyabr - Füzuli şəhəri günü

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 oktyabr tarixdə Azərbaycan xalqına müraciətindən: Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi.




Müraciətdə daha sonra deyilirdi: Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Bəli, dövlətimizin başçısının dediyi kimi də oldu. Biz düşməni torpaqlarımızdan qovduq. Qarabağı 30 illik işgəncədən qurtardıq. Budur, azad şəhərlərimizi tarixin səhifələrinə həkk edirik. Artıq iki ildir, oktyabr ayının 17-ni Füzuli şəhəri günü kimi qeyd edib, Zəfərimizin qürurunu yaşayırıq.

## 20 oktyabr - Zəngilan şəhəri günü

2020-ci il oktyabr ayının 20-si bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Həmin gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olunub. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır. Cənab İlham Əliyevdən tarixə yazılan yeni şad xəbər: İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!"

Bu gün Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Müraciətdə deyilirdi: Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik. Budur, 20 oktyabrı Zəngilan şəhəri günü kimi qeyd edirik. Hər il qeyd etdikcə də Zəngilanın dünənini xatırlayacaq, bu günü ilə qürur duyacağıq.

## 25 oktyabr - Qubadlı şəhəri günü

2020-ci ilin oktyabr ayının 25-i yeni Azərbaycan tarixinin növbəti şanlı səhifəsinə çevrildi. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa müraciəti yenə də işğaldan azad edilən ərazilərimizin xoş müjdəsi ilə bitdi: "İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam. Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu,




Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

Dünən mən artıq bu barədə Azərbaycan xalqına bu sevincli xəbəri verdim. Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Budur, tariximizin səhifələrinə yeni bir əlamətdar gün daxil olub-Qubadlı şəhəri günü. Hər il təqvimin həmin gününü qürurla qeyd edəcək, erməni əsarətindən xilas edilən yurd yerimizin tarixini yada salacaq və gələcək nəsillərə bu barədə danışmaqla qürur tariximizi yaşadacağıq.




## 8 noyabr - Şuşa şəhəri günü

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Prezident cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bəli, 28 il əvvəlki 8 mayın üzərindən 28 il sonrakı 8 noyabr xətt çəkdi. Şuşa əbədiyyən Azərbaycana-öz doğma anasına qaytarıldı. Artıq qovuşub iki doğma. Noyabr ayının 8-ni isə Qarabağın baş tacı Şuşa şəhəri günü kimi qeyd etməklə, böyük bir tarixi yaşadır, nəsillərdən-nəsillərə ərməğan etmiş oluruq.

## 20 noyabr - Ağdam şəhəri günü

44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq: Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

Müraciətdə deyilirdi: Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi. 20 noyabrı Ağdam şəhəri günü kimi qeyd etməklə bu tarixi qələbəni yaşadır, ağdamlıların ağ gününü dünyaya yayırıq.

## 25 noyabr - Kəlbəcər şəhəri günü

Kəlbəcər. Bu qədim yurd yerimizin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qaldı. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: -Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

...Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır.

25 noyabr Kəlbəcər şəhəri günüdür. Bu tarix əsrlər boyu qədim yurd yerinin tarixindən söhbət açacaq, nankor qonşumuz ermənilərin pis xislətinin əzəli ata-baba torpağımıza vurduğu ziyanı diqqətlərə yenidən çatdıracaq və tarixi qələbəmizlə qürur duyacağıq.

## Biz Qarabağa və Şərqi Zəngəzura qayıdırıq

Sərəncamda o da qeyd olunurdu ki, 30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın şəhərinə və digər yurd yerlərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Təqvimimizin yeni əlamətdar günləri-şəhər günləri yeni tariximizin qürur dolu səhifələridir. Bu səhifələri bizə bəxş edən dövlətimizin başçısına, milli ordumuzun zabit və əsgərlərinə, torpaqlarımız uğrunda canından keçən şəhidlərə və sağlamlığını itirən qazilərə minnətdarıq. Təqvimə salınan bu yeni günlər gələcək nəsillərin tariximizi dərindən öyrənməsi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir. Eyni zamanda yaşanan və yaşadılacaq tarixdir.

**Mətanət Məmmədova**




# Əhsən, Hidayət!




**Özünü hər zaman demokratiyanın beşiyi adlandıran, bütün dünyaya demokratiya "dərsi" keçən, lakin hər zaman da bəzi ölkələrdəki ictimai-siyasi hadisələrə yersiz müdaxiləsi ilə demokratiyanın beşiyində deyil, eşiyində olduğunu nümayiş etdirən Fransanın son vaxtlar Azərbaycana qarşı əsassız və aqressiv münasibəti fonunda Parisdə keçirilən Yay Olimpiya Oyunlarının qızıl medalını qazanan cüdoçu Hidayət Heydərovun iştirakçı ölkələrlə yanaşı, fransızlara da Azərbaycan himnini dinlətməsi, zirvəyə qaldırılan Azərbaycan bayrağını seyr etdirməsi lap yerinə düşdü. Hidayət Heydərov sanki gözlər önünə 44 günlük İkinci Vətən müharibəsinin əsgər və zabitlərini, şəhid və qazilərini gətirdi. Daim Ermənistanın arxasında olan, haqsız iddialarını haqlı sayan, ona yersiz şəkildə dəstək olan Fransa Hidayətin bu çempionluğu ilə yerlə yeksan oldu.**

Müharibədən söz düşmüşkən, neçə ki, 2020-ci iləqədərki dövrdə Azərbaycan gəncliyi vətənpərvərlik, Vətənə məhəbbət ruhunda tərbiyə edildi, bu tərbiyənin nəticəsi Böyük Zəfərimizlə nəticələndi, artıq 20 ildir, Azərbaycan gəncliyi ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından da faydalanır. Prezident İlham Əliyev uzun illərdir ki, ölkədə idmanın hərtərəfli inkişafı, gənc nəslin sağlam böyüməsi, onların idmanın bütün növləri ilə məşğul olmasında maraqlı olub və bütün bunlara lazımı köməklik göstərib. İdman Federasiyalarının rəhbərləri ilə görüşlər, onlara verilən tapşırıqlar, yaradılan şərait isə öz nəticəsini verib. Azərbaycan artıq bütün dünyada idmanın müxtəlif sahələrində birincilik əldə edib, idmançılarımız ölkəmizə çoxsaylı medal gətiriblər.

Dövlətimizin başçısının Azərbaycanda olimpiya hərəkatına qayğısının budəfəki olimpiya oyunları zamanı da şahid olduq və bununla qürur duyduq. Prezident cənab İlham Əliyev və Birinci xanımı Mehriban Əliyeva tərəfindən çempionumuzun telefon vasitəsilə təbrik olunması və Mehriban Əliyevanın rəsmi instaqram hesabında Hidayət Heydərovun Olimpiya çempionu olması ilə bağlı "Əhsən! Əhsən! Əhsən, Hidayət! Təbrik edirəm! Yaşasın Azərbaycan!"paylaşımı etməsi Azərbaycanın bayrağımı Fransada qaldıran azərbaycanlı övladına, idmançısına böyük dəstəyin, eyni zamanda qayğının, həm də qürurun təzahürüdür.






Beynəlxalq karyerası ərzində 38 finalın 36-da tatamini qalib tərk edən Hidayət Heydərov bu dəfə finalda fransalı Con Benjamin Qabanı ipponla üstələməklə olimpiadanın qızıl medalını da qazandı. Maraqlı və qürurverici hal isə bu qələbənin məhz Fransada fransalıya qarşı olmasıdır.

Və bir də qürurverici Hidayət Heydərovun söylədiyi fikirlər idi: "Medal kolleksiyamı tamamladım. 4 il idi ki, bu yarışa hazırlaşırdım. Bundan sonra 2028-ci ildə Los-Ancelesdə keçiriləcək olimpiadaya hazırlaşacağam. Səhifələrdə mənimlə bağlı yazılan rəyləri oxuyuram. Məni dəstəkləyən hər kəsə öz təşəkkürümü bildirirəm. Biz qalib xalqın övladlarıyıq. Fransada hər kəs Azərbaycan himnini ayaq üstə dinləyəcək".

Və dinlədi də. Uğurun, qələbən mübarək! Himnimizi səsləndirdiyin, bayrağımızı zirvədə dalğalandırdığın üçün çox sağ ol, Hidayət. Mehriban xanımın dediyi kimi, əhsən, Hidayət!

***Mətanət Məmmədova***

# İsmayıl Haniyəyə sui-qəsd - Haniyə kim idi, bölgədə nələr olacaq?

HƏMAS lideri İsmayıl Haniyənin İranın paytaxtı Tehranda öldürüldüyü açıqlanıb. HƏMAS-ın verdiyi açıqlamaya görə, İsrail, Haniyənin Tehrandakı iqamətgahında sui-qəsd təşkil edib. HƏMAS-ın yüksək səviyyəli rəsmilərindən Musa Əbu Merzuk bu sui-qəsdə görə İsrailə cavab verəcəklərini bildirib. Bəzi mənbələrə görə, Haniyənin iqamətgahına uzaqdan idarə olunan raketlə hücum edilib."İsrail öz məqsədlərinə çata bilməyəcək. HƏMAS-ın müqavimətini, iradəsini qıra bilməyəcək. Yolumuzdan dönməyəcəyik. Qələbəyə əminik", - deyə HƏMAS rəsmiləri bildirib. Fələstin hökumətinin başçısı Mahmud Abbas da sui-qəsdi qınayıb. Suiqəsdi pisləyən Abbas Fələstin xalqını İsrailə qarşı birlikdə hərəkət etməyə, səbirli olmağa və işğala qarşı möhkəm dayanmağa çağırıb. İran rəsmilərindən gələn məlumata görə, hadisə ilə bağlı araşdırma aparılmaqdadır və araşdırmanın nəticəsi yaxın vaxtlarda ictimaiyyətə açıqlanacaq.Məsələdən dərhal sonra Türkiyə Xarici İşlər Nazirliyindən reaksiya gecikməyib. Fələstin xalqına başsağlığı ifadə edilən bəyanatda, bu hücumun "Netanyahu hökumətinin sülh niyyətində olmadığını bir daha ortaya qoyduğu" bildirilib. Onların fikrincə, bu hücum həm də Qəzzadakı müharibəni regional ölçüyə yaymaq məqsədi daşıyır.



Görünən odur ki, beynəlxalq ictimaiyyət məsələyə müdaxilə üçün hərəkətə keçməsə, bu region daha böyük münaqişələrlə üzləşəcək. Son olaraq Türkiyə tərəfi bildirib ki, "Fələstin xalqının haqq yolunu dəstəkləməyə davam edəcəyik". Rusiya da məsələ ilə bağlı açıqlama verib və hücumu pislədiyib. Rusiya Xarici İşlər Nazirliyi Haniyənin ölümünü "qəbuledilməz və siyasi sui-qəsd" kimi qiymətləndirib. Eyni zamanda Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov Haniyənin ölümünün bölgədə gərginliyin artmasına səbəb olacağını bildirib.Onu da qeyd edək ki, İsmayıl Haniyə İranın yeni prezidenti Məsud Pezeşkian ilə Tehranda görüşüb və yeni prezidentin andiçmə mərasimində iştirak edib. Haniyə Pezeşkiandan başqa İranın dini lideri Ayətullah Əli Xamenei ilə də görüşüb. HƏMAS-ın yarandığı gündən bəri aparıcı simalarından biri olan Haniyə 2006-cı ildə Fələstinin baş naziri təyin edilmiş, lakin növbəti il Qəzzada baş verən hadisələrdən sonra vəzifəsindən uzaqlaşdırılmışdı.

Haniyə 2017-ci ildə HƏMAS-ın Siyasi Bürosunun rəhbəri seçilib. Eyni zamanda ABŞ 2018-ci ildə Haniyəni "terrorçular siyahısı"na əlavə edib. Həmin il Qəzzanı tərk edən Haniyə daha çox Qətərdə yaşayıb. O, 7 oktyabr hücumlarından sonra HƏMAS-ın İran diplomatik nümayəndəliklərinə də teztez baş çəkirdi. Haniyə bu müddətdə prezident Rəcəb Tayyib Ərdoğanla da görüşüb. O, Türkiyə ilə münasibətləri yaxşılaşdırmağa çalışıb, yardım və atəşkəs məsələlərini müzakirə edib. Haniyənin üç oğlu da İsrailin aprelin 10-da Qəzzadakı hava hücumunda həyatını itirib.İsrail tərəfi isə Haniyənin ölümü ilə bağlı birbaşa şərh verməyib. İsrail tərəfindən Nazir Amiçay Eliyahu deyib ki, Haniyənin ölümü "dünyanı daha yaxşı bir yerə" çevirib. Haniyənin ölümü ilə bağlı hələlik ABŞ-dan heç bir açıqlama verilməyib. Eyni zamanda İsrail, dünən Livanın paytaxtı Beyrutda həyata keçirdiyi əməliyyatda Hizbullahın yüksək rütbəli komandiri Fuad Şükrünün öldürüldüyünü desə də, Hizbullah bu xəbəri hələ ki, təsdiqləməyib.HƏMAS-ın 7 oktyabr 2023-cü ildə İsraildə həyata keçirdiyi hücumlarda əksəriyyəti mülki vətəndaş olmaqla 1200-ə yaxın insan həyatını itirib, 251 nəfər girov götürülüb. İsrail tərəfi girovlardan 39-nun öldüyünü, 111-nin isə hələ də Qəzzada saxlanıldığını açıqlayıb. Daha sonra İsrailin baş naziri Benyamin Netanyahu 7 oktyabr hücumlarından sonra HƏMAS-ı məhv edəcəklərini və bütün girovları geri qaytaracaqlarını bildirib. İsrailin cavab əməliyyatlarında isə 7 oktyabrdan bəri ən az 39 min 400 adamın həyatını itirdiyi açıqlanıb. İranda öldürülən HƏMAS lideri isə İsrailin törətdiyi siyasi sui-qəsdlərdən sadəcə biridir. Görünən odur ki, bu tip hadisələrin sayı artdıqca Qəzzadakı müharibənin şiddəti də artacaq. Beləliklə, regionda şiddətin ciddi şəkildə artması gözləniləndir.

***Zərdüşt Quluzadə***



# Şəhid maketini oynadıb şəhid tortu kəsənlər

***Biz II Qarabağ müharibəsindən sonra heç vaxt görmədiyimiz vəziyyətlərə şahid olduq. Nakam köçən şəhidlərə toy mərasimi təşkil edildi, bəylik stolu quruldu. O məclisə şəhidin kartondan düzəldilmiş maketi vağzalı sədaları ilə gətirildi, maketin qarşısında qol götürüb ağlaya-ağlaya oynadılar. Dünən yenə bir video gördüm "facebook"da, şəhid maketinə toy edirdi valideynləri. Təsəvvür edirsiniz? Bu üstü örtüləcək, etina edilməyəcək davranış deyil, bu, ölkə yüklü, ictimai yüklü problemdir. Şəhidin şəkli həkk edilmiş tortu kəsib karton maketinə toy etmək ağıllı adamın işi deyil, normal əməl deyil.***

Dərd insana çox səhv etdirər, çox doğrunu yanıldar. Analar-atalar dərddən məntiqli fikirləşə bilmir, düzgün qərar verə bilmir, bəs o nəslin ağsaqqal-ağbirçəkləri niyə icazə verir buna? Anlaşılandır, şəhid ataları-anaları övladlarının unudulmağından çəkinirlər, balaları xalq yolunda əbədiyyətə qovuşub, xatirəsinin əbədi olmağını istəyirlər haqlı olaraq. Amma şəhidi əbədiləşdirməyin yolu ona toy etmək olmamalıdır.

Ötən il şəhid bacısının öz toyunda qardaşının maketi ilə oynadığı video bütün sosial şəbəkələrdə istifadəçilər tərəfindən paylaşıldı, əksəriyyət bunun doğru olmadığını dedi. Təsəvvür edin, gənc qız öz toyunda şəhid qardaşının başqa biri tərəfindən oynadılan





maketinin önündə qol qaldırıb oynayır. Bundan ağır yük varmı? Bu fikir kimdən çıxmışdı, ideya müəllifi kim idi, gəlinə şəhid maketi ilə rəqs eləməsini kim təklif etmişdi, bilmirəm. Amma o gənci bu cür şouya çevirmək, şəhid kimi müqəddəs bir adın sahibini bir karton qədər ucuzlaşdırmaq normal deyil. Bunun yerinə şəhidin foto və videolarından, qəhrəmanlıq tarixindən bəhs edən qısa metrajlı bir film-video çarx hazırlaya, toyda nümayiş etdirə, onu xatırlaya bilərdilər. Amma bunun yerinə ucuz şou nümunəsi göstərirlər.

Toy millətimizin ali dəyərlərindən biridir. İki gəncin öz həyatlarını birləşdirməsi mərasimi şadlıq-şadyanalıq deməkdir. Bu mərasimdə şəhid maketi qoyub qarşısında oynamaq o ada, o şəhidə ən yumşaq dillə desək hörmətsizlikdir. Bu gün yüzlərlə bəy-gəlinimiz öz toy mərasiminə getməzdən əvvəl şəhid məzarını ziyarət edir, xeyir-dua alır, sonra məclisə gedirlər. Bu, şəhidə hörmətin, onların nakam ölümünə borclu olduğumuz azad həyat üçün minnətdarlığımızın göstəricisidir. Şəhidə edilən toyda o maketin qarşısında oynayanlar, qol götürüb süzənlər, o məclisdə yeyib-içənlər, sizin heç ali dəyəriniz yoxdur?

Sosial şəbəkələrdə bir video da yayılmışdı, şəhidin ad günü idi, şəhid anasına balasının məzarının üstündə üzərində şəhidin əksi olan tort kəsdirirdilər. Ananın əlləri əsirdi, tortun üstündən gülümsəyən balasına bıçaq vurmağa əli gəlmirdi. Ağlaya-ağlaya tortun lap kənarını, şəhidin fotosu olmayan yerini kəsdi azacıq. Bütün dəyərləri qətl edənlər, bütün müqəddəs hissləri təhqir edənlər, ali bildiyimiz hər şeyi adiləşdirənlər, bütün gücü



ilə mənəviyyatımızı tənəzzül etdirənlər o tortu utanmadan, sıxılmadan, ölüb yerə girmədən yedilər. Şəhid adını, anasını əməllərinə alət edənlər də bizdəndir, bizim içimizdəndir. Balasının şəklini kəsməyə əli gəlməyib kənarını kəsən şəhid anaları, alət olmayın bu şoulara, ucuzlaşdırmayın o qəhrəmanları.

Həmişə belə videolar görəndə Əlini xatırlayıram. Əli Tağıyev 44 günlük müharibənin qəhrəmanlarından biridir. Səbail rayonunda, hər gün minlərlə uşağın yeridiyi məktəb yolunun üstündədir doğulduğu, böyüdüyü ev. Həm Aprel döyüşlərinin, həm də 44 günlük müharibənin iştirakçısı olub. Cəbrayıl və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən Əli Füzuli döyüşləri zamanı şəhid olub. Ailəsi Əlini heç vaxt unudulmayacaq bir formada əbədiləşdirib. Yaşadığı evin divarına Əlinin boydan boya böyük bir fotosu və haqqında məlumat əks etdirilmiş bir barelyef həkk etdirdilər. İllərdir hər gün minlərlə şagird-valideyn keçir o evin önündən, Əlinin fotosunu görən hər kəs ona dua edir, rəhmət oxuyur.

Adı vətənlə ömürlük bağlanan bu igidin qoca nənəsi Zəfər Günündə, Anım günlərində, şəhidin doğum və müqəddəsləşdiyi günlərdə qapının önündən keçən məktəblilərə qəhrəman Əlinin kiçik şəkli əks olunmuş yaxa kartı paylayır. Bir görsəydiniz, həmin günlərdə bütün gün boyu məktəblilərin sinəsində necə gülümsəyir Əli. Uşaqlardan kimə yaxa kartı verilməyibsə şəhidin ailəsinin qapısını döyüb nənəni çağırıb kart istəyir.

***Lalə Mehralı***





# Qərbin mədəni tənəzzülü

**Parisdə keçirilən Olimpiya Oyunları ənənəvi dəyərlər tərəfdarlarının tənqid fırtınasına səbəb olub. İdman tədbiri Qərbin əsl simasını göstərib. "Al Mayadeen"də dərc olunan məqalə müəllifi qeyd edir ki, "oyanış" və anlayışların dəyişdirilməsi siyasəti Avropa əxlaq normalarının və mədəniyyətinin qalıqlarını məhv edəcək.**

Parisdə keçirilən Olimpiya Oyunlarının açılış mərasimi sosial şəbəkələrdə xristianlığı təhqir etdiyinə görə tənqidlərlə partlayanda az qala başa çatmışdı. Transgenderlər Leonardo da Vinçinin İsa Məsihin şagirdləri ilə son yeməyi səhnəsini əks etdirən dünyaca məşhur tablosu "Son şam yeməyi"nin parodiyasını nümayiş etdiriblər. İnsanlar şounun bir çox hissəsinin homoseksuallığı və transseksuallığı təbliğ etdiyini hiss etdilər. Qadınlar da özlərini zəif hiss edirdilər. Axı məşəli biri transgender olan iki kişi aparıb. Bəziləri Paris Olimpiadasında baş verənləri almanların Qətərdə keçirilən dünya çempionatı zamanı təbliğ etməyə çalışdıqları ilə əlaqələndirirlər. Qərb "oyanış" və "homoseksuallığı təşviq edən, ənənəvi ailə və dini dəyərlərə qarşı mübarizə" siyasətinə çağıraraq, dünyaya "sol-liberal" gündəmi tətbiq etməyə çalışır.



## "Oyanış siyasəti"nin mənası

"Oyanma" və ya "yatmaqdan imtina" sözü əvvəlcə ABŞ-da qaradərililərə qarşı sistematik hüquqi ədalətsizlik və bərabərsizlik barədə məlumatlı olmağa çağırmaq üçün istifadə edilmişdir. 1938-ci ildə amerikalı blyuz musiqiçisi Lead Belly Alabama ştatında iki ağdərili qadına təcavüz etməkdə yalandan ittiham olunan doqquz qaradərili yeniyetmə haqqında mahnı buraxdı. Sübutların olmamasına baxmayaraq, doqquz yeniyetmədən səkkizi təqsirli bilinib və tamamilə ağ münsiflər heyəti tərəfindən ölüm cəzasına məhkum edilib. Bəziləri ölüm cəzasından qurtulsalar da, uzun illər həbsxanada qalıblar. Mahnı haqqında verdiyi müsahibədə Leadbelly, "Alabamaya gedərkən diqqətli olmalısınız. Ən yaxşısı "yuxudan vaz keçmək" və gözlərinizi açıq saxlamaqdır". Bu ifadə buradan gəlir.

Termin qaradərililər tərəfindən 2010-cu ilə qədər istifadə edilmişdi və daha sonra xüsusilə Black Lives Matter təşkilatının yaradılmasından sonra daha geniş məna kəsb etməyə başlayıb. O vaxtdan bu, sosial ədalətə və daha çox inklüzivliyə çağıran "mütərəqqi" siyasətlər üçün çətir terminınə çevrilib. "Oyanış" termini ilkin olaraq irqi ədalətsizliyin fərqinə varmaq mənasını verirdi, lakin getdikcə "mənfi simvolizmə" keçib. "Oyandı" digər insanların sözləri əsas və ya cari siyasi düzgünlüyə uyğun gəlmirsə (proqressiv gündəliyə uyğun olaraq) senzuraya və demonizasiyaya çağırır. Bəziləri bunu azadlığı və özünüifadəni boğmaq və mənəvi tiranlığı tətbiq etmək üçün bir vasitə kimi görür. Qərb hökumətləri bu terminin tarixi sinfi və qaradərililərə qarşı irqi haqsızlıq haqqında məlumatlılığı ifadə edən orijinal mənasının aşınmasına əhəmiyyətli dərəcədə töhfə veriblər. Onlara "tarixi məzlum" kimi təsnif edilən digər qruplar da daxil idi. Qaradərililərə homoseksuallar, transgenderlər və s.

"Oyanış" və şüurun guya tətbiq oluna bilməməsinə baxmayaraq, Qərb ölkələri "məcburetmə siyasəti" yürütməyə başlayıblar: uşaqlardan cinsiyyətin dəyişdirilməsinin təşviq edildiyi (bəzən onların razılığı və xəbəri olmadan) valideynlərə "cinsi tərbiyə dərsləri" keçmələri tələb olunur) və onlara qadınların soyunub-geyinmə otaqlarında bəzi transgenderlər tərəfindən törədilən təcavüz və zorlamalara göz yumarkən qadınların idman və gözəllik yarışmalarına daxil edilən transgender insanlar haqqında öyrədilir.

Dünyada "oyanma" necə qəbul edilir?

Demokratlar və Respublikaçılar "oyanmaq" siyasətləri ilə bağlı fikir ayrılığına malikdirlər. Demokratlar Partiyasından prezidentliyə namizəd Kamala Harris (namizədliyindən əvvəl) Ağ Evdə transseksualların qarşılanması ilə bağlı təbliğat videosu yayımlayıb. Respublikaçı namizəd Donald Tramp da öz növbəsində "oyanma" siyasətinə qarşı olduğunu bildirib. Onlar öz rəsmi proqramlarında bu tendensiyaya qarşı mübarizə aparacaqlarını, məktəblərdə "yuxusuzluq" siyasətinin tətbiqini qadağan edəcəklərini və ən qısa zamanda solçu demokratları ABŞ ordusundan qovacaqlarını vəd ediblər.

Birləşmiş Ştatların başçılıq etdiyi kollektiv Qərb ölkələri məktəblərdə LGBT təbliğatını, eləcə də uşaqlarda cinsiyyətin dəyişdirilməsini təşviq edən çoxsaylı təhsil proqramlarını dəstəkləyir. Avropa ölkələri bir qayda olaraq, digər dövlətlərin suverenliyinə və onların öz dini dəyərləri ilə ziddiyyət təşkil edən siyasət yürütmələrini tələb etməklə onların öz mədəni və sosial normalarını seçmək hüququna zərbə vurur. Bu siyasət Qərbdə "sağ" və "sol" arasında parçalanmaya səbəb oldu. "Sağ" ümumiyyətlə mühafizəkar dəyərləri və "ənənəvi" ailəyə (kişi və qadından ibarət) hörməti müdafiə edir, bu, digər xalqların da dünyagörüşünü əks etdirir.

**V.SALAH**

---

*PSİXOLOQ İZAH ETDİ*

# "İnsanın insanı bu şəkildə cəzalandırmağa ixtiyarı yoxdur"

**"Ümumiyyətlə, qadın və kişi psixologiyasında hamımıza məlumdur ki, fiziki olaraq kişinin gücü qadının gücündən daha artıqdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib.**

Psixoloq bildirib ki, zaman keçdikcə tarixən qadınlar peşə, işləmək, pul qazanmaq baxımından keçmişə baxanda müasir dönəmimizdə qadınlarımız da kişilər kimi çiyin-çiyinə vuruşur, çalışır və özünü doğrultmaq üçün, ailəsinin maddi təminatında böyük dəstəkçi olurlar: "Bu gün vəzifədə müxtəlif vəzifələrdə çalışan qadınlarımız buna bariz nümunədir. Qeyd etmək istəyirəm ki, xanımlar ağır fiziki işə cəlb olunmasalar da, özlərinin maddi təminatı üçün gecə növbələrindən tutmuş gündüz növbələri, sürücülük, bir çox işlərdə çox aktivlik göstərirlər. O ki qaldı qadınların zo-



rakılığa məruz qalmasına, zorakılığa məruz qalan qadınlar faiz nisbətində ailə təhsili olmayan, özünə güvəni aşağı olan qadınlardır ki, sanki özlərini kişilərdən çox aşağı hesab edir. Bunlar müqayisəli şəkildə özünü zehni, mənəvi, fiziki cəhətdən zəif hesab edən qadın öz sözünün kəsəri olmayan, özünün haqqını tələb edə bilməyən qadın obrazlarıdır. Bunlar bir qisim qadınlardır ki, sanki öz haqlarını tələb edə bilmədikləri üçün, həyatda öz hesablarına yer qazanmadıqları üçün zorakılığa məruz qalırlar. Öz fikirlərini ifadə edə bilmirlər.

Hansısa professor, iki universitet bitirən qadını döymək olarmı? Bu, təkcə akademik inkişafla əlaqələri olmasa da, heç universitet bitirməyən qadınlarımız var ki, o qədər kübar, xanım-xatın həyat tərzi yaşayır ki, heç vaxt kişisinə özünü döydürməz. Burada da yanaşma keçmişdən qalma düşüncələrdir. Sanki "atam anamı döyüb, nolub ki? Məni də ərim döysə, nolacaq?" deyə qəbullanan qadınlar var, özlərini əzdirməyə hazırdırlar. Yaxud da, fikirlərini ifadə edə bilməyən qadınlar kişilərlə çox kobud davranaraq kişiləri əsəbdən çıxardaraq, sinir sistemini pozaraq özlərini bu həddə çatdırırlar. Sanki döyülməkdən həzz alan qadınlar var, döyülərək mozaxist kimi rahatlıq tapırlar. Bu da uşaqlıqda aldıqları tərbiyədən asılıdır. Bir qisim qadınlar başqa variant tapmırlar, çarəni döyülməkdə görürlər. Əslində kişilərə bu şəraiti yaradan qadınlar var. Gizli işlər görüb, yanlışlara yol verib özlərini qurban verən qadınlar var. Qadın obrazı o demək deyil ki, elə döyülməlidir, kişilərə də şiddət tətbiq edən qadınlar var, həm psixoloji, həm də fizioloji".

"Kişinin zorakılığa meylli olmasına səbəb də məhz həmin qadınların buna rahat şəkildə şərait yaratmasıdır. Qadınlar sanki özləri bu şəraiti yaradır, bu ənənəni davam etdirirlər, hətta övladlarına da tövsiyə edirlər: "o evdən meyidin çıxacaq". Amma belə deyil, insan "kəs səsini otur deməklə" yaşamamalıdır, haqqını tələb etməyi bacarmalıdır. Döyməklə insanı susdurmaq doğru deyil. Kişilərin zorakılığa meylli olmasına səbəb də keçmiş düşüncələridir ki, oğul övladı qeyrət simvoludur. "Qadın yanlış hərəkət edərsə, başı kəsilməli və öldürülməlidir" fikri köhnədən qalıb. Bir çox əsərlərdə də qeyd olunub. Amma belə deyil. Hər bir insanın fərdi inkişaf dinamikası özünə məxsusdur, o, özünə cavabdehdir. İnsanın insanı bu şəkildə cəzalandırmağa ixtiyarı yoxdur. Hər bir insanın kimyəvi tələbatı var, fiziki özünümüdafiə mexanizmi var. Bunu kişilər də, qadınlar da başa düşməlidir. İnsanlar bir-birindən sui-istifadə edir və sui-istifadə etməyə imkan yaradırlar. Kişilərin də zorakılığa meylli olmasına səbəb bəzən qadınların qızışdırıcı mövqeləri olur. Bəzən qadınların döyülmə istəyi ilə əlaqədar kişini buna məcbur etmələri də olur. Bir çox kişilərin də təfəkküründə "qadın nə qədər döyülsə, o qədər sözə baxan olar" fikri yaşayır. Bu ifadə ilə onlar qadınları döyə-döyə sanki tərbiyələndirməyi düşünürlər. Bu da onlarda genetik cərəyan edir. Babadan, atadan keçmə olur ki, döyə-döyə ağıllandırsınlar. Təəssüflər olsun ki, bu cür möhürlənmiş ənənəyə sadiq qalan, genetik ötürülən davranışlar da var ki, hələ də bir çox ailələrdə hökm sürür" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# “Türk Birliyinin möhkəmlənməsi bir çox ölkələrin maraqlarına uyğun deyil”




“Türk dövlətlərinin bir-biri ilə yaxınlaşması Türk Dövlətləri Təşkilatının getdikcə daha ciddi bir gücə çevrilməsi bir çox ölkələrin maraqlarına uyğun deyil”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib.O bildirib ki, onlar hesab edirlər ki, bu təşkilatın güclənməsi, Türk Birliyinin möhkəmlənməsi onların maraqlarına uyğun deyil: ”Ona görə buna müxtəlif vasitələrlə mane olmağa çalışırlar. Amma tarixin gedişi və hal-hazırdakı şərtlər türk dövlətlərini daha sıx inteqrasiyaya getməyə və gələcək dünya düzənində qlobal güclərdən biri kimi çıxış etmək şansı yaradır”.”Türk dövlətləri hesab edirəm ki, bu çağırışları doğru qəbul edərək uyğun addımlar atır. Nəzərə alsaq ki, xüsusilə də, Azərbaycan öz ərazilərini işğaldan azad edib suverenliyini bərpa edəndən sonra bu inteqrasiya prosesləri daha intensiv xarakter alıb. Artıq Türk dövlətləri arasında bütün istiqamətlərdə əlaqələr genişlənməkdədir. O cümlədən hərbi-texniki və hərbi sahələrdə də əməkdaşlıq dərinləşir. Bu kifayət qədər önəmli bir hadisədir. Türk Dövlətləri Təşkilatının gələcək dünya düzənində qlobal güclərdən birinə çevrilmək imkanı var. Həm ərazi, həm təhsilli və artan əhalisi, coğrafi mövqeyi, strateji önəmi, iqtisadi potensialı, yeraltı zənginlikləri və bütün parametrləri ilə Türk Dövlətləri Birliyi olduqca böyük potensiala malikdir. Bu potensial doğru şəkildə dəyərləndirilsə, istifadə edilsə, Türk Dövlətləri Birliyi gələcək dünya düzənində əsas aktorlardan biri olacaq. Türk xalqları rifah və təhlükəsiz şəraitdə yaşaya biləcəklər. Bu, olduqca böyük üstünlükdür. Nəzərə alsaq ki, Avropanı Asiya ilə birləşdirəcək böyük nəqliyyat dəhlizləri məhz türk dövlətlərinin ərazisindən keçir. Bu da olduqca strateji üstünlüklər vəd edir. Bütün əngəllərə baxmayaraq Türk dövlətlərinin indiki inteqrasiya tempi bu cür saxlanılaraq daha da intensivləşdirilsə, hesab edirəm ki, Türk Dövlətləri Birliyinin gələcəyi kifayət qədər aydındır. Türk Dövlətləri Birliyi gələcəkdə özünəməxsus həlledici rola malik olacaq” - deyə o, əlavə edib.

***S. Ağazadə***

# “Seçkinin nəticəsindən asılı olmayaraq Qərbdən qərəzli bəyanatlar səslənəcək”



**“Azərbaycanın 44 günlük Vətən savaşından sonra apardığı siyasət dünya güclərinin siyasi laylarını tərpətdi. Bu baxımdan Azərbaycan xəritədə balaca olsa da, xarici siyasəti ilə beynəlxalq aləmdə siyasəti dünyada gedən ictimai-siyasi proseslərə bilavasitə təsir etməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.**

O bildirib ki, Cənubi Qafqazda böyük güclərin savaşı gedir: ”Yəni ABŞ, Qərb, Rusiya arasında siyasi-iqtisadi, hərbi savaş gedir. Bu hərbi savaşın birinci episentri Ukrayna, ikinci episentri Cənubi Qafqazdır. Cənubi Qafqaz böyük güclərin diqqət mərkəzindədir. Bu həm iqtisadi baxımdan, həm də siyasi baxımdan belədir.

Cənubi Qafqazda aparıcı dövlət Azərbaycandır. Azərbaycanla razılaşdırılmadan böyük proyektlər həyata keçə bilməz. Bu baxımdan böyük güclər Azərbaycanın Vətən savaşından sonra, xüsusilə də Qərb Azərbaycana qarşı qərəzli kompaniya aparmaqdadır. Başda Birləşmiş Ştatlar, Fransa olmaqla açıq şəkildə Azərbaycana siyasi və iqtisadi baxımdan təzyiq etməkdədirlər. Hətta Fransanın rəsmiləri açıq şəkildə Azərbaycanı sanksiyada hədələyirlər. Bu baxımdan hətta Amerikada insan haqları ilə əlaqədar din azadlığının olmaması ilə əlaqədar çağırışlar və bəyanatlar da səslənməkdədir. Azərbaycan dünyanın güc mərkəzlərinin diqqət mərkəzindədir. Qarşıdan gələn parlament seçkiləri isə bu marağı özündə əks etdirəcək. Çünki Azərbaycan demokratik dövlət imici qazanmalıdır ki, xaricdən Azərbaycana qarşı hər hansı qərəzli kompaniya, təbliğatlar aparılmasın. Bu baxımdan hesab edirəm ki, Azərbaycanda keçiriləcək seçki demokratik və şəffaf olacaq. Xalqın iradəsi ilə formalaşan bir parlament olacaqdır”.

”Eyni zamanda qarşıdan COP29 gəlir. Əgər bu seçkidə hər hansı bir qərəzli davranış olarsa, bu zaman COP29-un fəaliyyətinə də kölgə sala bilər. Hesab edirəm ki, Azərbaycan bu seçkini demokratik və şəffaf keçirəcək. Xarici güclərin əlinə bəhanə verməyəcək. Buna baxmayaraq Qərbdən hansısa bir ədalətli davranış gözləməyimiz sadəlövhlük olardı. İdeal seçki keçirsək belə, Qərbin qərəzli davranışı həmişə olub, yenə də olacaq. İctimaiyyət, siyasi araşdırmaçı olaraq bu prosesi kökündən izləyirik. Seçkinin nəticəsindən asılı olmayaraq Qərbdən qərəzli bəyanatlar səslənəcək. Dövlətimiz də buna hazır olmalıdır. Bütün bunlara baxmayaraq seçkini beynəlxalq müşahidəçilərin müşahidəsi altında açıq demokratik, şəffaf şəkildə keçirməliyik ki, belə qərəzli qüvvələrin əlinə bəhanə verməyək. Bu baxımdan növbədənkənar keçirilən seçkidir və beynəlxalq aləmdə diqqət mərkəzində olan seçkidir. Bu seçkini demokratik keçirməklə Prezident İlham Əliyevin bir daha nüfuzunu və siyasi dəsti-xəttini dəstəkləyəcək parlament formalaşacaq. Qərbdən gələn təzyiqlərə Azərbaycan xalqı hazır olmalıdır, oradan gələn hər hansı qərəzli bəyanatlar olacaqsa, ona da adekvat cavablar veriləcək” - deyə o, əlavə edib.

***Söylü***



Elçin Bayramlı

# Dəyişib inkişaf edirik? Hansı istiqamətdə?

***Son vaxtlar maddi dəyərlər mənəvi dəyərləri üstələyib. İnsanlarda depressiya, stress artıb. Hiyləgərlik üsulları xeyli rəngarəngləşib və təkmilləşib. Ümumi cəmiyyət maraqları şəxsi maraqlara qurban verilir. Əsas məqsəd çoxlu pul qazanmaq, vəzifə, şöhrət əldə etmək və özünü başqalarından üstün göstərmək üzərində fokuslanıb. Qanunu, qaydanı pozmaq, dəyərlərə tüpürmək üstünlük sayılır, başqalarından fərqlənmək (bu hətta pis şeylərdə olsa belə) azarı gənclər arasında geniş yayılır.***

Hətta gərgin münasibətlər ətraf mühitdən ailə daxilinə keçib və məhz bu səbəbdən münaqişələrin, boşanmaların və ailədaxili qətllərin sayı artır. Böyük sözünü vecinə alan da yoxdur. Bir çox gənclər açıqca deyirlər ki, biz hər şeyi bilirik və doğru edirik, siz yaşlı nəsil heç nə bilmirsiniz və səhv edirsiniz. Lakin reallıq bütün dövrlərdə və bütün ölkələrdə olduğu kimi tam əksini göstərir.

Heç kim etiraz etməz ki, son vaxtlaradək milli-mənəvi dəyərlərimiz həyatımızın əsas sütunu idi. El arasında yazılmamış qanunlar adlandırılan ictimai davranış kodeksləri var idi və buna əməl olunurdu.

İnsanlar bir-biri ilə ədəb-ərkanla davranır, böyük-kiçik, qadın-kişi yeri bilinirdi. İctimai yerlərdə şit hərəkətlər, ucadan mahnı oxutmaq, dar keçidlərdə yolu kəsərək söhbətləşmək və ya zarafatyana süpürləşmək, ucadan danışmaq, hara gəldi zibil atmaq, avtobusda sürücü ilə söyüşmək, lütlənib efirə çıxmaq və əxlaqsızlıq təbliğ etmək... yəqin ki, heç kimin ağlına belə gəlmirdi.

Bəs, sonra nə baş verdi ki, situasiya 180 dərəcə dəyişdi? 21-ci əsrə keçid sanki başqa bir dünyanı gətirdi. Pul və vəzifə uğrunda amansızcasına mübarizə mənəvi dəyərləri tədricən arxa plana keçirdi.

Təhsilə, elmə, mədəniyyətə marağı əyləncənin əvəz etməsi, ağsaqqal-qarasaqqal münasibətlərinin çərçivədən çıxması, TV-lərdən şou, serial və kriminal verilişlərlə kütləvi əxlaqsızlaşma, psixotron terror, davamlı reklam təcavüzü ilə zövqlərin, xüsusiyyətlərin, davranışların, dəbin hansısa şübhəli xarici mərkəzlərdən formalaşdırılması... siyahı təəssüf ki, xeyli uzundur. Bu psixotron terror mənəvi zombiləşmənin əsasını qoymaqdadır...

Mediada, sosial şəbəkələrdə təhqir, böhtan, şantaj yalan xəbər yayıb çoxlu izləyici əldə etmək və pul qazanmaq daha ayıb sayılmır. İnternet məkanda biabırçılıq baş alıb gedir. Televiziyalar daha çox mənfi şeyləri təbliğ edir, maddi dəyərlərin mənəvi dəyərlərdən üstün olduğunu ”göstərirlər” (burada əlbəttə dövlət və ictimai televiziya kanallarını istisna etmək lazımdır, onlar hələ də televiziyanın əsas funksiyasını unutmayıblar).

Başqa cəmiyyətlərdə olduğu kimi bizim cəmiyyətdə də yad qüvvələr tərəfindən məşhur ”Overton pəncərəsi” tətbiq olunur, dəyərlərin tədricən dəyişilməsi prosesi aparılır. Bu ”Overton pəncərəsi” haqda oxuyun, prosesin necə aparıldığını görəcəksiniz, hər şeyə size aydın olacaq.

Bəli bu gün, yad dəyərlər, xüsusi nəzəriyyələr və peşəkar təcrübələrlə hər şey tədricən dəyişdirilir. Bunun nəticəsində, indi müsbət şeylər mənfi sayılır, mənfi şeylər müsbət. Mənfilər çoxaldıqca müsbətlər azalır. Azlıq isə gec-tez çoxluğa tabe olmalı olur.

Həqiqəti deyəni, nöqsanlarımızı üzə çıxaranı, düzəltməyə çalışanları, mənəvi dəyərləri müdafiə edənləri ”geridə qalmış” adlandırır və az qalırlar linç edələr. Cəmiyyətin nöqsanlarını deyən, onu düz yola dəvət edən ”kefli isgəndər”ləri vurub öldürməyək. Mirzə cəlilləri, haqverdiyevləri, sabirləri, nərimanovları, hacıbəyovları, cəfərləri, zərdabiləri... xalqın uğrunda çıraq kimi yanmış mütəfəkkirləri, mənfi adətlərə, cəhalətə qarşı böyük bir qüvvənin qarşısında qorxmadan mübarizə aparanları da belə etmişdik. Hərəsini bir cür çərlədib öldürdük. Lakin onların davamçıları dayanmadı, ideyaları, amalları ölmədi, yaşadı və xalqımızı da yaşatdı.

İndiki qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi daha çox qorumalıyıq, çünki indiyədək heç vaxt olmadığı qədər güclü təzyiq və terror altındadır. Elmə-təhsilə daha çox fikir verib irəli getməliyik. Sağlam düşüncəli, savadlı uşaqlar yetişdirib tərbiyə etməli, xalqımızı, ölkəmizi dünyanın inkişaf etmiş ölkəsinə çevirəcək insanları qorumalı, küçə müğənnilərini və yarıçılpaq modelləri dinləmək əvəzinə alimləri, ziyalıları dinləməliyik. Yalnız bu yolla bir millət kimi yaşaya və inkişaf edə bilərik. Azərbaycançılıq ideologiyasına və milli-mənəvi dəyərlərə söykənməklə.

# Gültəkin Hacıbəyli yol ayrıcında qalıb





Hər bir siyasi partiya təbii olaraq keçirilən seçkilərdə uğur əldə etməkdir. Buna nail ola bilməyən siyasi partiya liderləri istefa verməli və yerlərini daha perspektivli şəxslərə verməlidir. Dünyada yaşanan siyasi proseslər də bunu təsdiqləyir. Misal üçün qardaş Türkiyədə keçirilən seçkilərdə uduzan siyasi partiya rəhbərləri istefa veriblər. Eyni hadisələr Avropanın bir sıra ölkələrində də baş verib. Lakin Avropanın qaranlıq dairələrindən maddi və mənəvi dəstək alan Azərbaycanın dağıdıcı müxalifəti siyasi etiket qaydalarına nəinki əməl etməyiblər, əksinə, daha həyasız formada növbəti seçkilərə hazırlaşıb. Bəzən isə ağalarının sifarişlərinə boyun əyməklə seçkiləri "boykot" etmək kimi absurd iddia ilə çıxış ediblər. Yalnız son bir il ərzində Azərbaycanda keçirilən iki seçkidə dağıdıcı müxalif ünsürlər iştirak etməkdən imtina ediblər. Sentyabrın 1-də planlaşdırılan parlament seçkilərinə də AXCP və Milli Şuranın qatılmayacağı bəyan edilib. Təbii ki, onların bəhanələri başa düşüləndir. O mənada ki, Əli Kərimli, Cəmil Həsənli və digərləri anlayırlar ki, seçkilərə qatılmaq açıq şəkildə ağır məğlubiyyət deməkdir. Çünki ictimai maraqlara qarşı qərəzli mövqe tutublar.

### Dağıdıcı müxalifət ictimai dəstək qazana bilməz

Dağıdıcı müxalif ünsürlər hər zaman dövlətçiliyə qarşı çıxmaqla, xarici ağalarının təqdim etdikləri tapşırıqları icra ediblər. Hətta o dərəcədə milli hissdən məhrum olublar ki, canı və qanı bahasına 30 illik erməni işğalına son qoyaraq torpaqlarımızın azadlığına nail olan Azərbaycan əsgər və zabitlərinə qarşı qarayaxma kampaniyası aparıblar. Bu azmış kimi AXCP sədri Əli Kərimli "Bizim torpaqlarımızın azad edilməsi Koçaryanın və Sarkisyanın Azərbaycan ərazilərini işğal etməsindən artıq deyil", - deyə utancverici fikir söyləyib. İndi də COP29-un ölkəmizdə keçirilməsinə görə bütün dünyanın xalqımıza həsrətlə baxdığı bir vaxtda Əli Kərimli, Cəmil Həsənli və trolları konfransla bağlı ləyaqətsiz açıqlamalar yayır, paylaşımlar edirlər. Söz yox ki, belə bir müxalifət ictimai dəstək qazana bilməz. Əsaslı olaraq dağıdıcı siyasət aparan partiya sədrləri məğlubiyyətə düçar olmalıdır və olur da. Dağıdıcı müxalifət parlament seçkilərini "boykot" etmək iddiası ilə çıxış etməklə gözlənilən məğlubiyyətdən özlərini sığortaladıqlarını düşünürlər. Lakin cəmiyyət dağıdıcı ünsürlərin niyyətini başa düşür və bu da onların daha geniş formada gözdən düşməsinə gətirib çıxarır. Yəni qeyd olunanları hər kəs bildiyi halda dağıdıcı müxalifət özünü karlığa və korluğa qoyur. Bəzən isə həyasız formada əməllərinə haqq qazandırmağa çalışır.

### Gültəkin Hacıbəyli hər danışığı ilə gül vurur

Diqqətçəkən məqam ondan ibarətdir ki, bəzən Əli Kərimlinin, Cəmil Həsənlinin adi hala çevrilən riyakarlıqlarına trol qismində fərqli ünsürlər də qoşulurlar. Hansı ki, onlara qarşı Əli Kərimli, Cəmil Həsənli və digərləri tərəfindən səmimi münasibət mövcud deyil, daim onlardan məsafə saxlanılır. Gültəkin Hacıbəyli də özünü Əli Kərimlinin və Cəmil Həsənlinin könüllü trollu olaraq təqdim edənlərdəndir. Bu ünsür müxtəlif tədbirlərdə Əli Kərimlinin yanında dayanır, şəkillər çəkdirir, sosial şəbəkələrdə təqdim edilən tezislərin paylaşılmasında iştirak edir. Hətta parlament seçkilərinin "boykot" edilməsi barədə qərar veriləndə G.Hacıbəyli Ə.Kərimlinin mövqeyini müdafiə etdiyini bəyan etdi. Özünü diribaş trol olaraq göstərmək üçün müəyyən təxribat xarakterli açıqlamalarla da çıxış edir. Məsələn, deyir ki, guya müxalifətdən olan şəxslərə imzalarını verənlər sonradan hüquq-mühafizə orqanları tərəfindən sorğu-sual edilir. Adama deyən lazımdır ki, yalan ola bilər, necə ki, Ə.Kərimli vaxtaşırı bu metoddan istifadə edir, lakin imzanın verilməsinə görə sorğu-sual edilməsi lap ağ yalandır. Seçki prosesinə ləkə atmaq, seçicilərə qarşı böhtanla çıxış etmək deməkdir. Bir məqamda G.Hacıbəyli deputatlığa namizəd olub, hətta mandat da əldə edib. Sual olunur, G.Hacıbəyli o zaman haqq olaraq imzalar toplayıb və sonra da deputat seçilib? Əminəm ki, G.Hacıbəyli bir həftə yatmayıb düşünsə, sualın cavabını verə bilməyəcək. Mənim bildiklərimi bütün cəmiyyət, o cümlədən də Ə.Kərimli və C. Həsənli də yaxşı bilirlər. Sadəcə, Ə.Kərimli və C.Həsənli G.Hacıbəyli danışanda susurlar, çünki onlara belə satqın trol lazımdır. Beyinlərində isə "get özünü dola, biz bilmirik sən kim olmusan?!", - deyə ironik şəkildə könüllü trolu süzürlər. Şübhə yoxdur ki. G.Hacıbəylinin özü də Milli Şura və AXCP-də ona qarşı inamsızlığın olduğunu anlayır. Ancaq özünü təmizə çıxartmağa çarə və faktlar tapa bilmir. Sadəcə susur və deyilənləri yerinə yetirir. Vay belə bədbəxtlərin halına.

***İLHAM ƏLİYEV***

---






# "Dil təkcə ünsiyyət vasitəsi deyi, həm də xalqın tarixi, ədəbiyyatı, mədəniyyətidir"

"Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi Azərbaycan SSR-nin 1978-ci il tarixli Konstitusiyasında təsbit olunması bir çox aspektlərdən xüsusi əhəmiyyət daşıyırdı". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, milli-mənəvi dəyərlərimizin qorunmasında və inkişafında ana dilimizin rolu böyükdür: "Dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələləri keçərək onunla eyni taleyi yaşayıb müasir dövrə gəlib çatan ən böyük mənəvi sərvətlərimizdəndir. Dilimizin keçdiyi çətin dövrlərdən biri də SSRİ dövrü idi. SSRİ Konstitusiyası qəbul edildikdən sonra milli dillərin sıxışdırılması üçün daha ciddi tədbirlər görülməyə başladı.

O dövrün çətinliklərinə baxmayaraq öz xalqını, millətini böyük məhəbbətlə sevən ümumilli lider Heydər Əliyev ötən əsrin 70-ci illərində ana dilinə dövlət dili statusunun verilməsi uğrunda cəsarətlə və qətiyyətlə mübarizə aparmağa başladı. Ulu Öndər məqsədinə çatmaq üçün Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili olması barədə maddənin salınmasına çalışırdı. Heydər Əliyev ziyalıları da mübarizəyə cəlb edərək bu prosesi daha da gücləndirdi. 1978-ci ildə Azərbaycan SSR Ali Sovetinin VII sessiyasında Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Nəticədə bu məsələ Azərbaycan SSR Konstitusiyasında öz əksini tapdı. Bununla da Azərbaycan dili dövlət dili statusunu aldı.



Azərbaycan dilinin davamlı inkişafı, ana dilində nəşr edilən kitabların sayının artması, Ulu Öndər Heydər Əliyev tərəfindən dilimizin inkişafı istiqamətində digər həyata keçirilən tədbirlər xalqımızın müstəqillik düşüncələrini daha da gücləndirmiş oldu. Sonrakı illərdə ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasında hakimiyyətə gəldikdən sonra 1995-ci ildə referendumla qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində dövlət dilimizin Azərbaycan dili olması öz əksini tapdı.

Dövlətimiz tərəfindən Azərbaycan dilinin inkişafı və qorunması sahəsində mühüm işlər görüldü. 2001-ci ildə Ulu Öndər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Bu Fərman dilimizin inkişafı və tətbiqində yaranan problemlərin aradan qaldırılmasında xüsusi rol oynadı. Həmin Fərmanda nəzərdə tutulan digər mühüm məsələ Dövlət Dil Komissiyasının yaradılması idi.

Ümumilli lider Heydər Əliyevin 2001-ci ildə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" imzaladığı digər Fərmana əsasən ölkəmizdə hər il 1 avqust tarixində Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilməyə başlandı. Daha sonra, 2002-ci ildə Azərbaycan dilinin tətbiqi, qorunması, inkişafı və ana dilinin dövlət dili kimi hüquqi statusunun təsbit olunması məqsədilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi".

"Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev 2004-cü ildə "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" verdiyi sərəncamlarla elmin və mədəniyyətin inkişafına xüsusi diqqət göstərdiyini bir daha təsdiqləmiş oldu. Qeyd etmək lazımdır ki, müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının qorunması baxımından mühüm tarixi hadisədir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Heç şübhəsiz ki, Dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiq edir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Sergey Markov: "Makron Azərbaycana qarşı Paşinyanla gizli sui-qəsd qurub"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



**İyulun 30-da Türkiyə və Ermənistan sərhəddə öz nümayəndələrinin görüşü zamanı Ahurik-Akyaka dəmir yolu sərhəd-keçid məntəqəsinin bərpası, habelə diplomatik/xidməti pasportlara malik olan şəxslər üçün viza prosedurlarının qarşılıqlı asanlaşdırılması imkanlarını nəzərdən keçirmək barədə razılığa gəliblər.**

Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində Ankara ilə İrəvan arasında əldə olunan razılaşmaların Ermənistan-Azərbaycan sülh danışıqlarının gedişatına necə təsir göstərə biləcəyi, həmçinin Nikol Paşinyanın İlham Əliyevlə görüşdən niyə imtina etdiyinin səbəblərini açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Tərəflərin əvvəlki razılaşmalarının son nəticədə tam yerinə yetirilmədiyini nəzərə alsaq, Türkiyə-Ermənistan münasibətlərinin perspektivləri necədir?***

-Hesab edirəm ki, bugünkü görüş bu və ya digər dərəcədə Azərbaycan və Ermənistan arasında sülh sazişinin tezliklə imzalanması üçün artan perspektivlərin siqnalı oldu. Fakt budur ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması üçün Ankaranın İrəvan qarşısında qoyduğu şərt məhz budur. Bakı və İrəvan arasında sülh müqaviləsinin imzalanması BMT-nin noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransından əvvəl baş tuta bilər. Qeyd etdiyiniz kimi, əvvəllər ikitərəfli münasibətlərin normallaşdırılması üzrə danışıqlar prosesi çərçivəsində Türkiyə və Ermənistan bir sıra qərarlar qəbul etsə də, onlar tam yerinə yetirilməyib.

Ankara ən yaxın müttəfiqi kimi Azərbaycanın xahişi ilə bu prosesi dayandırıb. Bakı Ankaradan Azərbaycan ilə Ermənistan arasında sülh sazişi imzalanmayana qədər İrəvanla münasibətlərin normallaşdırılmasına dair saziş imzalamamağı xahiş edib. Bu, ümumilikdə məntiqlidir, çünki bu, Ermənistanı Azərbaycanla dövlətlərarası münasibətlərin qurulması məsələsində daha qəti addımlar atmağa sövq edəcək.

Türkiyə və Ermənistanın xüsusi nümayəndələrinin görüşü bu istiqamətdə öz bəhrəsini verə bilər. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin yekun nizamlanmasında müsbət perspektivlərin yaranmasına gətirib çıxara bilər.







Xatırladığımız kimi, bu gün Azərbaycan Ermənistanla sülh sazişi imzalaması üçün iki şərt qoyur. Bu şərtləri Azərbaycan lideri İlham Əliyev bu yaxınlarda keçirilən Şuşa Qlobal Media Forumunda bir daha səsləndirdi. Bunlardan biri Ermənistanın öz Konstitusiyasına etməli olduğu dəyişikliklər- onun mətnindən və digər qanunvericilik sənədlərinin mətnlərindən Azərbaycan Respublikasına qarşı ərazi iddialarının çıxarılmalıdır. İkinci şərt Qarabağ münaqişəsi üzrə yaradılmış ATƏT-in Minsk Qrupunun qanuni ləğvidir. Əliyevin qeyd etdiyi kimi, bunun üçün Azərbaycan və Ermənistan müvafiq sorğu təqdim etməlidir. Minsk qrupunun ləğvi həm də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının olmaması demək olacaq. Minsk Qrupunu bu gün Qarabağın və digər Azərbaycan ərazilərinin hələ də Ermənistan tərəfindən işğal olunduğu siyasi proseslər mərhələsinin "relikatı" adlandırmaq olar. Bu gün Qarabağ münaqişəsi həll olunub. Buradan belə çıxır ki, bu məsələ ilə məşğul olan beynəlxalq struktur da ləğv edilməlidir. Ləğv edilməzsə, Azərbaycanın bunu guya həll olunmamış Qarabağ probleminin şərhini konsolidasiya etmək cəhdi kimi qiymətləndirmək hüququ var.

***-Deyirsiniz ki, ilin sonuna qədər Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması ehtimalı yüksəkdir. O zaman Ermənistanın baş nazirinin bu yaxınlarda Böyük Britaniyada Azərbaycan prezidenti ilə danışıqlardan imtina etməsini nə ilə əlaqələndirirsiniz? Və bundan sonra- Ermənistan pilotsuz təyyarələrinin Azərbaycan mövqeləri üzərində silsilə kəşfiyyat uçuşları, eləcə də atəşkəsin pozulmasını necə qiymətləndirirsiniz?***

- Ola bilsin ki, atəşkəsin pozulması erməni hərbçilərinin şüurunda hakim olan azərbaycanafobiya ilə bağlıdır.

Paşinyanın Əliyevlə Britaniyada görüşməkdən imtina etməsini Fransa prezidenti Makronun Ermənistanın baş nazirinə bu görüşdən imtina etməsi ilə bağlı gizli şəxsi xahişi ilə əlaqələndirirəm. Müraciət Fransanın "müstəmləkə" ərazilərinin nümayəndələrinin qurultayı və Parisin müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparan cəbhənin Azərbaycanın dəstəyi ilə Bakıda keçirilən qurultayının yekunlarına əsaslanan maarifləndirmə işi fonunda verilib. Düşünürəm ki, Makron Bakının bu hərəkətinə son dərəcə qəzəblənib. Və o, Paşinyandan Əliyevlə görüşü pozmağı xahiş edib.

Yeri gəlmişkən, Parisdə Olimpiya Oyunlarının açılış mərasimi zamanı Fransa telekanallarından birində şərhçinin siyasi təxribat törətməsi də Fransa prezidentinin üzərinə düşür, çünki o, ardıcıl, cilovsuz anti-Azərbaycan kampaniyası aparırhəm ölkəsində, həm də xarici platformalarda. Fransız şərhçi bu siyasi nalayiq bəyanatları məhz Parisin bu çox anti-Azərbaycan siyasətinin təsiri altında edib.

İnanıram ki, bütün bunlara baxmayaraq, Azərbaycan və Ermənistan ilin sonuna kimi həqiqətən də sülh sazişi imzalaya bilərlər.

***- Bəs amerikalıların danışıqlar "yorğanını" öz üzərlərinə çəkmək və bir növ vasitəçilik etmək cəhdləri necədir?***

-Bəli, ABŞ bunu edir, amma mən inanıram ki, Ermənistan rəhbərliyi sonda hər hansı bir ölkənin vasitəçiliyi olmadan sülhün imzalanmasına razı olacaq. İrəvan istərdi ki, Qərbin vasitəçiliyi ilə Azərbaycanla sülh sazişi imzalansın. Amma Azərbaycan bunun qəti əleyhinədir. Və bu şərtlər daxilində Ermənistan seçim qarşısında qalacaq: ya Qərb vasitəçiliyi olmadan imza at, ya da heç imza atma. Düşünürəm ki, Paşinyan yekunda müqaviləyə imza atmağı seçəcək.

***-Cənubi Qafqazdakı vəziyyət və Qərbin ona təsir etmək cəhdləri Rusiyaya təsir etməyə bilməz. Rusiya sərhədçiləri avqustun 1-də Yerevan Zvartnots hava limanını tərk edəcəklər. Ermənistanın bu addımını necə şərh edirsiniz?***

- Bu addım simvolik xarakter daşıyır. Bunu Ermənistanın təhlükəsizlik sistemində Rusiyanın mövcudluğunun aradan qaldırılmasının başlanğıcının simvolu kimi də baxmaq olar.

1992-ci ildən Ermənistan tərəfinin xahişi ilə Rusiya sərhədçiləri respublikanın təhlükəsizliyini gücləndirmək üçün İrəvan hava limanında xidmət göstəriblər. Siyasətdə simvolların böyük əhəmiyyəti var. Paşinyan Rusiyanın Ermənistan ərazisində mövcudluğunu azaldır. Bu isə Ermənistanın Rusiyadan siyasi gedişini və eyni zamanda Qərblə yaxınlaşmasını simvollaşdırır. Ermənistan Rusiyanı Qərblə əvəz edir, o cümlədən təhlükəsizlik sistemində.

Qərbin Ermənistan ərazisində olması Ermənistanın ekspansiyasını, respublikanın təhlükəsizlik sisteminə onun nəzarəti bərqərar etməsini ifadə edir. Bu, Ermənistan ərazisində Qərb hərbi bazalarının açılması perspektivi ilə Ermənistanın NATO standartlarına keçməsini və Ermənistanla NATO arasında sazişin imzalanmasını nəzərdə tutur (və bu artıq baş verir). Ermənistan sonda Şimali Atlantika Alyansının yarımmüstəmləkə peykinə çevriləcək.

***- Ermənistanda Qərbin mövcudluğunun artması Rusiya və Azərbaycana necə zərər verə bilər?***

-Şübhəsiz ki, Qərb Rusiyaya qarşı düşmənçilik edir. Onun Ermənistana təsirinin istənilən artırılması Rusiya Federasiyasına ziyan vurmaq məqsədi ilə istifadə olunacaq.

Qərb-Azərbaycan münasibətlərinə gəlincə, bu gün Qərb Bakı üçün ekzistensial düşmən deyil. Amma bununla yanaşı, Qərbin Azərbaycana daha çox təzyiq göstərməyə çalışdığını görürük. Bu, həm də Qərb ölkələrində ən güclü erməni lobbisinin fəaliyyəti ilə bağlıdır. Həm də Azərbaycanın müstəqil siyasət aparması ilə. Qərb Azərbaycan Respublikasının neft və qaz ehtiyatlarına nəzarəti bərqərar etmək istərdi.

***-Ermənistan Azərbaycanla sülh sazişi imzalaya bilər. Amma bu, bizə sual verməyə mane olmur: İrəvanın gələcəkdə Azərbaycana qarşı hansısa hərbi qisas almaq variantı varmı?***

-Bəli, Ermənistan revanş variantını nəzərdən keçirir. Amma hələlik bu, yuxudan başqa bir şeyə bənzəmir. Ermənistan ordusunu müasir Azərbaycan ordusu ilə müqayisə etmək olmaz. Döyüşlər baş verərsə, o, sadəcə məğlub olacaq. Kiçik dağlıq Ermənistan respublikası böhran içindədir. Bu böhran Qarabağdakı məğlubiyyətlə, onun geosiyasi himayədarının Rusiyadan Qərbə keçməsi ilə bağlıdır.

***-Əgər indi qisas almaq mümkün deyilsə, niyə Qərb Ermənistanı silahla təmin edir?***

-Ona təsir etmək üçün. Və gələcəkdə bu təsirdən öz xeyrinizə istifadə etmək üçün. Birinci maraq Qərbin ümumi genişlənmə istəyidir: İtin bir tikə ət üçün can atdığı şövqlə Qərb də genişlənməyə can atır. İkinci maraq Rusiya ilə hibrid müharibədə erməni amilindən istifadə etmək istəyidir. Üçüncü maraq gələcəkdə İranla müharibədə bu amildən istifadə etmək istəyidir. Dördüncüsü isə, bundan Türkiyə, Azərbaycana, Gürcüstana qarşı istifadə etməkdir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
1 avqust
2024-cü il

# Hansı cəmiyyəti sağlam hesab etmək olar?





“O cəmiyyəti daha sağlam hesab etmək olar ki, orada əsas üç şərt qarşılıqlı olaraq hər zaman ödənilir”. Bu sözləri SİA-ya açıqlamasında şair, publisist, sosioloq Əhməd Qəşəmoğlu deyib. O bildirib ki, birinci odur ki, insanlar fiziki cəhətdən qənaətbəxş səviyyədə olmalıdırlar: ”İnsanların fiziki sağlamlığı getdikcə yaxşılaşmalıdır. Ondan sonra insanlar mənəvi cəhətdən daha zənginləşməlidir. Bu istiqamətdə də işlər getdikcə artmalıdır. Hamıda öz əməyinə yaradıcı münasibət tələbatı artmalıdır. Yəni hər kəs gördüyü işi sabah daha da yüksək keyfiyyətlə görmək istəyir. Evdar qadın sabah daha yaxşı xörək hazırlamaq, evi daha yaxşı dizayn etmək istəyir. Bir dərzi daha yaxşı paltar tikmək, bənna daha yaxşı ev tikmək, elmi işçi daha intensiv çalışmaq istəyir. Hər kəsdə bir tələbat olur ki, daha da yaxşı çalışsın. Bu, ”Ahəngyol” elminin gəldiyi nəticələrdən biridir. Beynəlxalq seminarlarda da dəfələrlə məruzə etmişəm və maraqla qarşılanıb.

Sağlamlıq, sağlam cəmiyyət deyəndə söhbət təkcə fiziki sağlamlıqdan gedə bilməz. İnsanlar fiziki cəhətdən olduqca sağlam ola bilər, amma elə mənəvi əhvalda ola bilərlər ki, o cəmiyyəti sağlam hesab etmək düzgün olmaz. Yaxud da, insanlar fiziki cəhətdən sağlam olar, amma tənbəl olarlar. Bu da sayılmır. Ona görə üç şərt daha yaxşı ödənəndə o cəmiyyəti daha sağlam saymaq olar. Belə bir cəmiyyət həmişə tərəqqi edir. İnsanlar fiziki də sağlam olur, mənəvi də zəngin olur, əməyə yaradıcı münasibət tələbatları da artır”.

”İqtisadiyyat, ekologiya, siyasət, mədəniyyət bu üç şərtin ödənməsinə xidmət edir. Bizdə iqtisadiyyatımız, siyasətimiz, mənəviyyatımız, mədəniyyətimiz də inkişaf etməlidir ki, üç şərtə kömək olsun, mane olmasın. Bəzən iqtisadiyyatı sürətlə inkişaf etdirib digərini unudurlar. Onda bizim 20-30 il əvvəlki Sumqayıt şəhəri kimi ekoloji cəhətdən fəlakətli şəhər yaranır. Belə bir yanaşmaya necə sağlam münasibət demək olar? Ona görə sağlam cəmiyyətdə bütün proseslər dediyim üç şərtin qarşılıqlı ahəng yaratmasına kömək etməlidir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Çimərlikdən 9 min manatlıq oğurluq edilib

**Bakıda çimərlikdən oğurluq edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, Bilgəh qəsəbəsində yerləşən çimərlikdə müxtəlif vaxtlarda 6 nəfərin 9000 manat dəyərində 7 ədəd mobil telefonunun və içərisində ümumilikdə 750 manat pul olan çantalarının oğurlanması barədə polisə məlumatlar daxil olub.**



Sabunçu RPİ 14-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməllərini törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 32 yaşlı Niyaməddin Qurbanov müəyyən olunaraq saxlanılıb.

## “Çelsi” qapıçı transfer etdi

***Londonun ”Çelsi” klubu Danimarka millisinin və ”Vilyarreal”ın qapıçısı Filip Yorgenseni heyətinə qatıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. 22 yaşlı qolkiperlə müqavilə 2031-ci ilin yayınadək nəzərdə tutulub. Futbolçu ABŞ turu zamanı əsas heyətə qoşulacaq. Transferin məbləği isə açıqlanmayıb.***



Lakin jurnalist və insayder Fabritsio Romanonun yaydığı məlumata görə, ”zadəganlar” ”Vilyarreal”a 24,5 milyon avro ödəyəcək. Qeyd edək k, Yorgensen 2023-cü ilin yanvarından La Liqa klubunun əsas komandasında oynayırdı. Bu müddət ərzində o, bütün turnirlərdə 44 matça çıxıb, 75 qol buraxıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700